NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

HEYDƏR ƏLİYEV



YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

30 oktyabr 2026-cı il, cümə № 9 (78)

# NDU-da YAP-ın VIII Qurultayından irəli gələn məsələlərə həsr olunmuş tədbir keçirilib

***Gənclərin vətənpərvərlik ruhunun gücləndirilməsi və kibertəhlükəsizlik məsələləri diqqət mərkəzində olub.***

Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyasının VIII Qurultayından irəli gələn məsələlərə həsr olunan tədbir keçirilib.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və



Vətən uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

NDU-nun rektoru Elbrus İsayev çıxışında YAP-ın dövlətçiliyin formalaşması və inkişafındakı rolundan danışıb. Rektor VIII Qurultayda Prezident İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf istiqamətlərinin əhəmiyyətini vurğulayıb, təhsil müəssisələrinin qarşısında duran vəzifələrə toxunub. Rektor vətənpərvərlik ruhunun gücləndirilməsi, kibertəhlükəsizliyə diqqətin artırılması və strateji hədəflərə uyğun fəaliyyətin vacibliyini də qeyd edib.









YAP Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli və YAP Universitet ərazi partiya təşkilatının sədri Bəhruz Məmmədov da çıxışlarında qurultaydan irəli gələn vəzifələr və fəaliyyət istiqamətləri barədə məlumat veriblər. Çıxışlarda qurultayda müəyyənləşdirilən hədəflərin həyata keçirilməsində partiya üzvlərinin fəallığının və qarşıya qoyulan vəzifələrin icrasına məsuliyyətlə yanaşmasının əhəmiyyəti vurğulanıb.

Sonda YAP-a yeni qəbul olunan tələbələrə üzvlük vəsiqələri təqdim edilib. Tədbir partiyanın Himninin səsləndirilməsi ilə başa çatıb.

# Pekin İnformasiya Elmləri və Texnologiyaları Universiteti arasında ikili diplom müqaviləsi imzalanıb

Naxçıvan Dövlət Universiteti ilə Çinin Pekin İnformasiya Elmləri və Texnologiyaları Universiteti (Beijing Information Science and Technology University – BISTU) ali təhsil müəssisəsi arasında











“İnformasiya təhlükəsizliyi” ixtisası üzrə 2+2 formatlı ikili diplom proqramının həyata keçirilməsinə dair müqavilə imzalanıb. Proqrama əsasən, tələbələr bakalavriat təhsilinin ilk iki ilini Naxçıvanda, növbəti iki ilini isə Pekində davam etdirərək hər iki universitetin diplomunu əldə edə biləcəklər. Proqrama tələbə qəbulunun 2027-2028-ci tədris ilindən başlanması nəzərdə tutulur.

Müqavilə NDU-nun rektoru Elbrus İsayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına rəsmi səfəri çərçivəsində imzalanıb. İmzalanma mərasimində NDU-nun rektoru Elbrus İsayev, BISTU-nun rektoru, professor Guo Fu və hər iki ali təhsil müəssisəsinin rəhbər heyətinin nümayəndələri iştirak ediblər.

Müqavilənin şərtlərinə əsasən, proqramı uğurla başa vuran və hər iki universitetin akademik tələblərini yerinə yetirən məzunlar iki ali təhsil müəssisəsinin diplomunu əldə etmək imkanı qazanacaqlar. Proqram tələbələrin beynəlxalq akademik mühitdə təhsil almalarına, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahələrində bilik və bacarıqlarını inkişaf etdirmələrinə şərait yaradacaq.




Təhsillərinin bir hissəsini Pekində davam etdirəcək tələbələr BISTU-nun laboratoriyalarından, texnoloji infrastrukturundan və elmi-tədqiqat imkanlarından yararlanmaqla nəzəri biliklərini praktiki təcrübə ilə möhkəmləndirmək imkanı əldə edəcəklər.

Səfər çərçivəsində keçirilən görüşdə informasiya texnologiyaları və kibertəhlükəsizlik sahələrində birgə təhsil proqramlarının inkişafı, professor-müəllim heyətinin akademik mobilliyi və ortaq elmi-tədqiqat layihələrinin həyata keçirilməsi imkanları da müzakirə olunub.

Əməkdaşlıq çərçivəsində 2027-ci ilin aprel və may aylarında BISTU-nun professor-müəllim heyətinin Naxçıvan Dövlət Universitetinə səfərləri nəzərdə tutulur.

Çinli professorların NDU-da ixtisas fənləri üzrə dərslər keçməsi, universitetin akademik heyəti ilə birgə elmi tədqiqatlar aparması, həmçinin informasiya texnologiyaları, kibertəhlükəsizlik və rəqəmsal texnologiyalar sahələrində təlim və elmi seminarlar təşkil etməsi planlaşdırılır.

BISTU ilə imzalanan müqavilə Naxçıvan Dövlət Universitetinin beynəlxalq akademik əməkdaşlığının genişləndirilməsinə, Azərbaycan-Çin ali təhsil əlaqələrinin inkişafına xidmət edəcək.

***Badəm Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Şanxay Mühəndislik Elmləri Universiteti ilə ikili diplom və strateji əməkdaşlıq imkanları müzakirə olunub

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və universitetin nümayəndə heyəti Çin Xalq Respublikasının nüfuzlu ali təhsil müəssisələrindən biri olan Şanxay Mühəndislik Elmləri Universitetinin (Shanghai University of Engineering Science) rəhbərliyi ilə görüş keçirib.



Görüşdə iki universitet arasında təhsil, elmi-tədqiqat, innovasiya və beynəlxalq akademik əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub. Tərəflər Naxçıvan Dövlət Universitetində HSK – Çin dili üzrə beynəlxalq səviyyə imtahanı mərkəzinin yaradılması, eləcə də Çin dili üzrə hazırlıq imkanlarının genişləndirilməsi məsələlərinə toxunublar. Təşəbbüsün həyata keçirilməsi Naxçıvanda bu sahədə ilk addım olmaqla, NDU-da HSK imtahanlarının təşkili və Çin dili üzrə hazırlıq prosesinin həyata keçirilməsinə imkan yaradacaq.

Əməkdaşlığın digər istiqamətləri sırasında süni intellekt, dizayn və bərpa olunan enerji sahələrində magistratura səviyyəsində ikili diplom proqramlarının yaradılması məsələləri yer alıb. Bu sahələrdə birgə təhsil proqramlarının hazırlanması, elmi-tədqiqat layihələrinin həyata keçirilməsi, tələbə və müəllim mübadiləsinin təşkili, həmçinin NDU tələbələrinin Şanxayda keçiriləcək yay məktəblərində iştirakı ilə bağlı imkanlar nəzərdən keçirilib. Bildirilib ki, belə təşəbbüslər tələbələrin beynəlxalq təcrübəsinin artırılmasına, müəllimlərin akademik əlaqələrinin genişləndirilməsinə və hər iki universitetin elmi potensialının inkişafına töhfə verə bilər.





Şanxay Mühəndislik Elmləri Universiteti əsasən mühəndislik, tətbiqi texnologiyalar və dizayn sahələri üzrə ixtisaslaşır. Universitetin güclü istiqamətlərinə avtomobil və maşınqayırma mühəndisliyi, elektrik-elektronika, kompüter elmləri, aviasiya və dəmir yolu nəqliyyatı, enerji texnologiyaları və yaradıcı dizayn daxildir. Tədrisdə praktiki hazırlığa, sənaye ilə əməkdaşlığa və innovasiyalara xüsusi önəm verilir.

Şanxay dünyanın aparıcı maliyyə, ticarət, texnologiya və innovasiya mərkəzlərindən biri olmaqla, Çinin beynəlxalq iqtisadi əlaqələrində, elmi-texnoloji inkişafında və ali təhsil sahəsində mühüm strateji əhəmiyyətə malikdir. Şəhər həmçinin dünya universitetlərinin elmi fəaliyyət göstəricilərini qiymətləndirən nüfuzlu



Şanxay reytinqinin (Academic Ranking of World Universities – ARWU) yarandığı mərkəz kimi beynəlxalq ali təhsil məkanında xüsusi yer tutur.

Görüşdən sonra NDU nümayəndə heyəti Şanxay Mühəndislik Elmləri Universitetinin kampusu, tədris və tədqiqat infrastrukturu, müasir laboratoriyaları və ixtisaslaşmış fakültələri ilə tanış olub. Universitetin təhsil və elmi fəaliyyətinin təşkili, sənaye ilə əlaqələri və beynəlxalq əməkdaşlıq təcrübəsi barədə məlumat verilib.

Səfər iki ali təhsil müəssisəsi arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, yeni akademik tərəfdaşlıqların qurulması və birgə təhsil proqramlarının yaradılması baxımından əhəmiyyətli addım kimi qiymətləndirilir. Tərəflər müzakirə olunan istiqamətlər üzrə əməkdaşlıq imkanlarının gələcəkdə konkret təşəbbüslər və birgə layihələr vasitəsilə inkişaf etdirilməsində maraqlı olduqlarını bildiriblər.

# Beynəlxalq maliyyə qurumu ilə təhsil sektorunun inkişafı istiqamətində mühüm müzakirələr

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Ovni Muradov və Asiya İnkişaf Bankının Azərbaycan üzrə ölkə direktoru Sunniya Durrani-Camal arasında görüş keçirilib.



Görüşdə təhsil infrastrukturunun inkişafı, müasir texnologiyaların tətbiqi, elmi-tədqiqat imkanlarının genişləndirilməsi və beynəlxalq əməkdaşlıq perspektivləri müzakirə olunub.

Təhsil naziri Ovni Muradov muxtar respublikada 211 ümumtəhsil məktəbinin və üç peşə məktəbinin fəaliyyət göstərdiyini bildirib. O, məktəblərin elektron lövhə və müasir avadanlıqlarla təchiz olunmasının, eləcə də Prezident İlham Əliyevin 12 avqust tarixli Sərəncamına əsasən, beş məktəbəqədər təhsil müəssisəsinin tikintisinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Rektor Elbrus İsayev universitetin 60 illik inkişaf yolundan, təhsil və elmi-tədqiqat potensialından, beynəlxalq əlaqələrindən və gələcək hədəflərindən danışıb. Hazırda universitetdə 15 mindən çox tələbənin təhsil aldığını, bunun isə 6 minə yaxınının ölkənin digər regionlarından və dünyanın 30 ölkəsindən gələn tələbələr olduğunu bildirən rektor 12 ixtisas üzrə tədrisin ingilis dilində aparıldığını, biotexnologiya, aqro-



Universitetin elm və innovasiya potensialından bəhs edən Elbrus İsayev Süni intellekt, Proqramlaşdırma və innovasiya mərkəzlərinin, Nəbatat bağının və



iki rəsədxananın fəaliyyəti haqqında məlumat verib. Universitet komandasının startap layihələri üzrə altı dəfə Azərbaycan çempionu olduğunu bildirən rektor növbəti mərhələdə komandanın dünya çempionluğunu hədəflədiyini bildirib. Bundan əlavə, rektor məzunların 74 faizinin öz ixtisası üzrə çalışdığını, bəzi ixtisaslarda isə məşğulluq göstəricisinin 100 faizə çatdığını vurğulayıb.

Elbrus İsayev elmi-tədqiqatların kənd təsərrüfatı, bitki mühafizəsi, torpaq ehtiyatları, meliorasiya və turizm kimi sahələri əhatə etdiyini, İstanbul Texniki Universiteti ilə nanotədqiqatlar üzrə əməkdaşlığın davam etdirildiyini diqqətə çatdırıb. O, həmçinin universitetin beş beynəlxalq kitab platforması vasitəsilə 50 milyon kitab resursuna çıxış imkanının olduğunu bildirib.

Asiya İnkişaf Bankının Azərbaycan üzrə ölkə direktoru Sunniya Durrani-Camal Naxçıvan Dövlət Universiteti haqqında əldə etdiyi məlumatların onda böyük maraq doğurduğunu bildirib, universitetin təhsil, elmi-tədqiqat və beynəlxalq əməkdaşlıq potensialını yüksək qiymətləndirib.

Görüşdə rəqəmsallaşmaya dair təlimlərin təşkili, laboratoriyaların müvafiq avadanlıqlarla təmin olunmasına dəstək göstərilməsi və biotexnologiya laboratoriyalarının fəaliyyətinin inkişaf etdirilməsi imkanları



da müzakirə olunub.

Sonda təhsilin keyfiyyətinin yüksəldilməsi, elmi-tədqiqat və innovasiya fəaliyyətinin gücləndirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində qarşılıqlı əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

# Məhkəmə-hüquq sistemi və kadr hazırlığı istiqamətində yeni tərəfdaşlıq imkanları

Naxçıvan Dövlət Universitetində Azərbaycan Respublikası ədliyyə nazirinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Abiddin Hüseynovla görüş keçirilib.

Əvvəlcə Naxçıvan Dövlət Universiteti və Ədliyyə Nazirliyinin nümayəndələri arasında hüquq təhsilinin inkişafı, Hüquqşünaslıq ixtisası üzrə kadr hazırlığı, təhsilin keyfiyyətinin yüksəldilməsi və tələbələrin peşəkar inkişafı məsələləri müzakirə olunub.

Daha sonra Abiddin Hüseynov Beynəlxalq münasibətlər və hüquq fakültəsinin tələbələri ilə görüşüb.



Tədbiri giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev 1996-cı ildən universitetdə Hüquqşünaslıq ixtisası üzrə kadr hazırlığının həyata keçirildiyini bildirib. Rektor qeyd edib ki, ötən dövrdə universitet çoxsaylı məzunlar yetişdirib və onların məhkəmə sistemində, ədliyyə orqanlarında, eləcə də digər dövlət qurumlarında fəaliyyət göstərməsi sevindirici haldır. Rektor məzunların müxtəlif qurumlarda keçirilən qəbul imtahanlarında yüksək nəticələr əldə etməsini kadr hazırlığının uğurlu göstəricilərindən biri kimi dəyərləndirib.

Abiddin Hüseynov çıxışında Ədliyyə Nazirliyinin əsas fəaliyyət istiqamətləri, o cümlədən qanunvericilik, məhkəmə və digər orqanların qərarlarının icrası, məhkəmə ekspertizası, notariat, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı, eləcə də bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verib. Həmçinin Nazirliyin fəaliyyət istiqamətləri üzrə rəqəmsallaşma və süni intellektin tətbiqindən bəhs edib. Nazir müavini tələbələrə bilik və bacarıqlarını daim inkişaf etdirməyi, nəzəri biliklərini praktiki təcrübə ilə möhkəmləndirməyi, elmi fəaliyyətə və mütaliəyə xüsusi diqqət yetirməyi tövsiyə edib. Görüş tələbələrin suallarının cavablandırılması ilə davam edib.










Sonda qonaqlar universitetin Beynəlxalq münasibətlər və hüquq fakültəsi, Məhkəmə ekspertizası və kriminalistika laboratoriyası ilə tanış olublar. Laboratoriyanın fəaliyyəti, tədris prosesində praktiki məşğələlərin təşkili və tələbələrin peşəkar hazırlığında rolu barədə məlumat verilib.

# Beynəlxalq Mədəni Diplomatiya Forumu

Naxçıvan Dövlət Universitetində Beynəlxalq Mədəni Diplomatiya Forumu keçirilib. Tədbir Naxçıvan Dövlət Universitetinin tərəfdaşlığı, Ərzurum Böyükşəhər Bələdiyyəsinin himayəsi, Ərzurum Diplomatiya Araşdırmaları Mərkəzi Dərnəyinin təşkilatçılığı, Türkiyənin Naxçıvandakı Baş Konsulluğu, Azərbaycan Respublikasının Qarsdakı Baş Konsulluğu və Yunus Əmrə İnstitutunun iştirakı ilə baş tutub.

Tədbirdən əvvəl Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan








və Türkiyənin dövlət himnləri səsləndirilib.

Forumun açılışında çıxış edən Türkiyənin İqtisadiyyat və Xarici Siyasət Araşdırmaları Mərkəzinin İdarə Heyətinin sədri Ergün Engin Azərbaycan və Türkiyənin ortaq mədəniyyətə, tarixə və coğrafiyaya malik olduğunu vurğulayıb. Ergün Engin Naxçıvan Dövlət Universitetinin türk tələbələrin təhsil aldığı mühüm ali təhsil müəssisələrindən biri olduğunu qeyd edib, universitetlər arasında akademik əməkdaşlığın və tələbə-müəllim mübadiləsinin əhəmiyyətinə diqqət çəkib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında Azərbaycan və Türkiyə arasında tarixi-mədəni bağlılığın təhsil sahəsindəki əməkdaşlıqla daha da möhkəmləndiyini vurğulayıb.

Rektor NDU-nun beynəlxalq əlaqələrinin genişləndirilməsinə, xüsusilə Türkiyənin nüfuzlu ali təhsil müəssisələri ilə əməkdaşlığın inkişafına diqqət çəkib. Bildirib ki, türk professorların universitetdə mütəmadi olaraq tədris prosesinə cəlb olunması tələbələrin bilik və bacarıqlarının inkişafına, akademik təcrübənin paylaşılmasına mühüm töhfə verir. Azərbaycanlı tələbələrin və professor-müəllim heyətinin mobillik proqramlarında iştirakının universitetlər arasında elm və təhsil əlaqələrinin möhkəmlənməsinə şərait yaratdığını vurğulayan rektor ortaq mədəni irsin qorunması və təbliği baxımından belə forumların əhəmiyyətini də qeyd edib.

Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunun konsul müavini Ayşe Şengül Yıldırım forumun yalnız fikir mübadiləsi platforması deyil, həm də yeni dostluqların və mədəni layihələrin başlanğıcı olduğunu bildirib. Ayşe Şengül Yıldırım tədbirin Azərbaycan-Türkiyə arasında mədəni əlaqələrin möhkəmlənməsinə, Naxçıvanın türk dünyasındakı rolunun daha geniş tanıdılmasına, ortaq tarixi yaddaşın və mədəni irsin gələcək nəsillərə ötürülməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Forum üç əsas panel üzrə müzakirələrlə davam edib. Panellərdə ictimai diplomatiya, media və kommunikasiya, tarixi yaddaş, geokultural əlaqələr, qeyri-maddi mədəni irsin qorunması, ortaq kimlik, mədəni mənsubiyyət və rəqəmsal dövrdə mədəniyyətin təmsil olunması məsələləri müzakirə edilib.

Müzakirələrdə Yunus Əmrə İnstitutunun Türk Mədəniyyəti və İncəsənəti Departamentinin rəhbəri Ali Rıza Karabağ, Naxçıvan Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasının müəllimi Nazlı Yaqubova, Ankara Hacı Bayram Vəli Universitetinin professoru Zakir Avşar, Türkiyə Milli Müdafiə Universitetinin "Respublika tarixi" kafedrasının professoru İbrahim Ethem Atnur və digər iştirakçılar çıxış ediblər.

Forum çərçivəsində ənənəvi türk teatrının nümunələri olan "Orta oyunu", "Karagöz və Hacivat" səhnəcikləri nümayiş etdirilib. Qeyd edək ki, Karagöz və Hacivat" səhnəciyi Naxçıvanda ilk dəfə göstərilib.

***Badəm Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Müstəqilliyin bərpası ali təhsil ocağında qürurla qeyd olunub





Naxçıvan Dövlət Universitetində 18 Oktyabr – Müstəqilliyin Bərpası Gününə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra Müstəqilliyin Bərpası Gününə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Azərbaycanın dövlət müstəqilliyinin bərpasının tarixi əhəmiyyətindən danışıb. Qeyd edib ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti tərəfindən Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi ölkəmizin müstəqil dövlət kimi inkişafının hüquqi əsaslarını yaradıb. Azərbaycanın dövlət müstəqilliyinin beynəlxalq səviyyədə tanınması, Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunması və digər beynəlxalq təşkilatlarla əməkdaşlığı dövlətçiliyimizin möhkəmlənməsində mühüm rol oynayıb.

Rektor vurğulayıb ki, Prezident İlham Əliyevin 2021-ci il 15 oktyabr tarixli "Müstəqillik Günü haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan edilib. Dövlət müstəqilliyinin bərpası Azərbaycan xalqına milli dövlətçilik ənənələrini davam etdirmək, azərbaycançılıq ideologiyası ətrafında birləşmək və demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu inkişaf etdirmək imkanı verib.

Tədbirdə tarix elmləri doktoru, professor Sevinc Abbasova və Naxçıvan Dövlət Universitetinin Vətən tarixi ixtisası üzrə II kurs doktorantı Kübra Əliyeva da çıxış ediblər. Çıxışlarda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının tarixi və hüquqi əsasları, 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti ilə varislik əlaqələri və müstəqilliyin milli dövlətçilik tariximizdəki yeri diqqətə çatdırılıb.

Bildirilib ki, 1991-ci il oktyabrın 18-də qəbul edilən Konstitusiya Aktında 1918-ci il 28 May İstiqlal Bəyannaməsinə və 1991-ci il 30 avqust tarixli müstəqilliyin bərpası haqqında Bəyannaməyə istinad olunub, Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilib. Çıxışçılar həmçinin 44 günlük Vətən müharibəsində qazanılan tarixi Qələbənin əhəmiyyətini vurğulayıblar.

Qeyd olunub ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası və suverenliyinin tam təmin edilməsi dövlətçilik tariximizin ən mühüm nailiyyətlərindəndir. Bu gün Azərbaycan xalqı Müstəqilliyin Bərpası Gününü suverenliyini tam təmin etmiş qalib xalq kimi qeyd edir.

# Rəqəmsal transformasiya prosesində yenilənmiş rəsmi internet portalının təqdimatı

Naxçıvan Dövlət Universitetinin yenilənmiş rəsmi internet saytının təqdimatı keçirilib. İnformasiya Texnologiyaları Şöbəsinin təşkilatçılığı ilə keçirilən təqdimatda universitetin rəsmi internet saytının yenilənməsi çərçivəsində həyata keçirilən texniki və funksional təkmilləşdirmələr, yeni dizayn konsepsiyası, istifadəçi təcrübəsinin optimallaşdırılması və tətbiq olunan müasir texnoloji həllər barədə məlumat verilib. Bildirilib ki, yeni platformanın hazırlanması zamanı məlumatların sistemli və əlçatan formada təqdim olunması, istifadə rahatlığının artırılması, naviqasiya və axtarış imkanlarının təkmilləşdirilməsi, eləcə də müxtəlif cihazlara uyğun responsiv dizaynın tətbiqi əsas prioritetlər kimi müəyyənləşdirilib. Saytın strukturunun yenilənməsi istifadəçilərin universitetin fəaliyyəti və təhsil imkanları ilə bağlı məlumatlara daha operativ çıxışını təmin etməyə yönəlib.

Qeyd olunub ki, platformada NDU ID vasitəsilə vahid giriş sistemi, rol əsaslı idarəetmə mexanizmi və müasir təhlükəsizlik həlləri tətbiq edilib. Bu yeniliklər istifadəçi girişinin mərkəzləşdirilmiş şəkildə təşkili, idarəetmə proseslərinin səmərəliliyinin artırılması və informasiya təhlükəsizliyinin təmin olunması baxımından əhəmiyyət daşıyır. Yenilənmiş internet saytının funksional imkanlarından biri də süni intellekt əsaslı tərcümə funksiyasının inteqrasiyasıdır. Sözügedən imkan universitetə aid məlumatların müxtəlif dillərdə operativ hazırlanmasına və təqdim edilməsinə şərait yaradır. Bu, eyni zamanda universitetin beynəlxalq informasiya mühitində təmsilçiliyinin genişləndirilməsi və xarici auditoriyanın müvafiq məlumatlara çıxış imkanlarının artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.




Təqdimatın praktiki hissəsində saytın əsas bölmələri, axtarış və naviqasiya funksiyaları, həmçinin inzibati idarəetmə panelinin iş prinsipləri nümayiş etdirilib. Platformanın hazırlanması çərçivəsində görülən işlər, tətbiq olunan texniki həllər və sistemin idarə olunması mexanizmləri barədə İnformasiya Texnologiyaları Şöbəsinin veb-dizayneri Xəyalə Kərimova və sistem inzibatçısı Rəşad Abbasov məlumat veriblər.



Sonda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək universitetin rəqəmsal inkişafı istiqamətində həyata keçirilən yeniliklərin əhəmiyyətini vurğulayıb. Rektor qeyd edib ki, rəsmi internet saytının müasir tələblərə uyğun yenilənməsi universitet haqqında məlumatların operativ və əlçatan formada təqdim edilməsinə, tələbə və əməkdaşların rəqəmsal xidmətlərdən istifadəsinin asanlaşdırılmasına, eləcə də informasiya mühitinin təkmilləşdirilməsinə xidmət edir. Yenilənmiş rəsmi internet saytının istifadəyə verilməsi Naxçıvan Dövlət Universitetində rəqəmsallaşma proseslərinin inkişafı, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və universitetin informasiya resurslarının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsidir.

# Gənclərin Süni İntellekt Forumu

Naxçıvan Dövlət Universitetində Gənclərin İnkişaf və Karyera Mərkəzinin təşkilatçılığı, Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi və "Gənc Könüllülər" İctimai Birliyinin tərəfdaşlığı ilə Gənclərin Süni İntellekt Forumu keçirilib.




Tədbir başlamazdan əvvəl Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Forumda çıxış edən NDU-nun Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov bildirib ki, rəqəmsal texnologiyaların və süni intellektin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Qeyd edib ki, "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" çərçivəsində ixtisaslı kadr hazırlığı və gənclərin bu sahədə bilik və bacarıqlarının artırılması əsas hədəflərdəndir.




Prorektor həmçinin NDU ilə Milli Süni İntellekt Mərkəzi arasında imzalanmış Əməkdaşlıq Memorandumunun tələbə və gənclərin süni intellekt üzrə inkişafına, birgə layihələrin həyata keçirilməsinə imkan yaratdığını vurğulayıb.

Gənclərin İnkişaf və Karyera Mərkəzinin baş direktoru Azər Əliyev forumun əhəmiyyətindən və gənclər üçün yaradılan imkanlardan danışıb.

Naxçıvanda ilk dəfə keçirilən forumun məqsədi gənclərin süni intellekt üzrə bilik və bacarıqlarını inkişaf etdirmək, texnologiyaların peşə və karyera seçimlərinə təsirini müzakirə etmək, onları dəyişən əmək bazarının tələblərinə hazırlamaqdır.

Tədbir çərçivəsində "Süni intellektin inkişafı fonunda dəyişən peşələr və gənclərin karyera seçimlərinə təsiri" mövzusunda panel müzakirəsi keçirilib. Müzakirələrdə əmək bazarında baş verən dəyişikliklər, yeni peşələr və gənclərin karyera imkanları diqqət mərkəzində olub.

Forumda həmçinin Milli Süni İntellekt Mərkəzinin marketinq mütəxəssisi Qismət Abdullanın təqdimatında "Agentic AI və onun real həyatda tətbiqi" mövzusunda vörkşop təşkil edilib.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Beynəlxalq Müəllimlər Günü qeyd olunub

Naxçıvan Dövlət Universitetində 5 Oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilib.

Əvvəlcə İncəsənət fakültəsinin Təsviri incəsənət müəllimliyi və Rəngkarlıq ixtisasları üzrə təhsil alan tələbələrinin müəllim əməyinə həsr olunmuş 45 bədii əsərdən ibarət sərgisinə baxış keçirilib. Sərgidə tələbələrin yaradıcılıq nümunələri nümayiş etdirilib.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və




Vətən uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan NDU-nun rektoru Elbrus İsayev professor-müəllim heyətini Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edib. Rektor müəllimlik peşəsinin cəmiyyətin inkişafında, savadlı və vətənpərvər gənc nəslin formalaşmasında mühüm rolunu vurğulayıb. Ulu Öndər Heydər Əliyevin müəllim əməyinə verdiyi yüksək dəyərin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edən rektor dövlətin təhsilə göstərdiyi diqqət və qayğının Naxçıvan Dövlət Universitetinin inkişafında da özünü göstərdiyini bildirib.

Rektor bu diqqətin davamı olaraq universitet əməkdaşlarının əməkhaqlarının 15 faiz artırılmasının nəzərdə tutulduğunu da qeyd edib. Bildirib ki, bu addım universitet əməkdaşlarının sosial rifahının yüksəldilməsinə və onların əməyinə verilən dəyərin











ifadəsinə xidmət edir.

Tədbirdə pedaqogika elmləri doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, professor İsmayıl Əliyev, tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, professor Hacıfəxrəddin Səfərli və "Avropa dilləri" kafedrasının baş müəllimi Kövsər Abbasova çıxış ediblər. Çıxışlarda müəllimlik fəaliyyətinin ənənələri, təhsil və elmin inkişafında pedaqoqların rolu, gənc nəslin yetişdirilməsində müəllim məsuliyyəti və müəllim əməyinə göstərilən dövlət qayğısından bəhs olunub.

Tələbə Gənclər Təşkilatının sədri Hüseyn Tahirov isə çıxışında müəllimlik peşəsinin məsuliyyətindən, mənəvi dəyərindən və tələbələrin gələcək fəaliyyətinin formalaşmasında müəllimlərin rolundan danışıb.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında musiqi nömrələri təqdim olunub. Bədii proqram fakültənin ansamblının müşayiəti ilə davam edib.

Proqram çərçivəsində E.İbrahimovanın "Daha məndə dözüm yox", Ə.Tağıyevin "Sənin gülüşlərin", o cümlədən P.Bülbüloğlunun "Şən Azərbaycan" əsərləri ifa olunub. Bununla yanaşı, "Bayatı-Şiraz" təsnifi, "Yana-yana kül oldum" xalq mahnısı və E.İmanovun "Ana" mahnısı səsləndirilib.

Tədbir iştirakçılarda xoş əhval-ruhiyyə yaradıb.

# Cavad Cavadlının 100 illik yubileyinə həsr olunmuş tədbir

Milli Mədəniyyətin Təbliği İctimai Birliyi Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə






1 avqust 2026-cı il tarixindən "Şair Cavad Cavadlının ədəbi irsinin təbliği" layihəsini həyata keçirir. Layihə çərçivəsində növbəti tədbir ədibin doğulduğu Naxçıvan Muxtar Respublikasında, Naxçıvan Dövlət Universitetində keçirilib.







Tədbirin aparıcısı, layihə rəhbəri Jalə Cəfərova qonaqları salamlayaraq Cavad Cavadlının həyat və yaradıcılıq yoluna nəzər salıb, ədibin yaşadığı dövrün ictimai-siyasi mənzərəsi, qarşılaşdığı çətinliklər və ədəbi fəaliyyətinin əsas istiqamətləri barədə məlumat verib. Cavad Cavadlının yaradıcılığında xalqın taleyi, tarixi yaddaş və milli həqiqətlərin mühüm yer tutduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Cavad Cavadlının Azərbaycan həqiqətlərinin işıqlandırılmasındakı rolunu vurğulayıb, yaradıcılığının gənc nəslin milli ruhda tərbiyəsində əhəmiyyətini qeyd edib. Rektor ədibin dövrünün problemlərini, Azərbaycan xalqının tarixində baş vermiş ağrılı hadisələri əsərlərində əks etdirdiyini bildirib. Naxçıvanın Azərbaycan xalqına görkəmli şəxsiyyətlər bəxş etdiyini vurğulayan Elbrus İsayev xalqın azadlığı və xoşbəxtliyi uğrunda mübarizə aparmış şəxsiyyətlərin irsinin yaşadılmasının vacibliyini diqqətə çatdırıb.

NMR Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar çıxışında Cavad Cavadlının Naxçıvan ədəbi mühitinə göstərdiyi dəstəyi və qayğını ehtiramla xatırlayıb. Ədibin ailəsinin sürgün həyatı, yaşadığı çətinliklər və bu hadisələrin yaradıcılığında əksi barədə danışan Asim Yadigar "Cəhənnəmdən qaçmış uşaq" və "Sürgün" əsərlərinin əhəmiyyətini vurğulayıb.

Digər çıxışçılar da Cavad Cavadlının həyat və yaradıcılığı ilə bağlı fikirlərini bölüşüblər.

Tədbirdə ədibin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Bədii hissədə tələbələrin ifasında Cavad Cavadlının "Naxçıvan" şeiri səsləndirilib, müxtəlif musiqi nömrələri ifa olunub. Daha sonra Cavad Cavadlının həyatını əks etdirən səhnəcik təqdim edilib.

Sonda xatirə fotosu çəkdirilib.

***Badəm Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Universitetdə birinci kurs tələbələri arasında seçmə yarışlara start verilib

Naxçıvan Dövlət Universitetində birinci kurs tələbələri arasında idmanın müxtəlif sahələri üzrə ənənəvi seçmə yarışlara start verilib. Yarışlar altı idman növü – mini futbol, oğlanlar və qızlar arasında voleybol, stolüstü tennis, şahmat və basketbol üzrə keçiriləcək. İlk olaraq mini futbol yarışlarına start verilib və qarşılaşmalar bir neçə gün ərzində davam edəcək.







Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev yarışların açılış mərasimində çıxış edərək tələbələrin idmanın müxtəlif növləri üzrə qazandıqları uğurlardan bəhs edib, bu nailiyyətlərin davamlı olmasını arzulayıb. Rektor universitetdə idman strategiyasının qəbul edildiyini, bu istiqamətdə sistemli və hesabatlı fəaliyyətin həyata keçiriləcəyini, əldə olunan nəticələrin mütəmadi müzakirə olunacağını bildirib. Əsas məqsədin ölkə və beynəlxalq səviyyədə uğur qazana biləcək komandaların hazırlanması olduğunu vurğulayıb. Rektor həmçinin tələbələrin idmana cəlb olunmasının əhəmiyyətindən və bu istiqamətdə universitetdə yaradılan imkanlardan danışıb.

Universitetin İdman Klubunun sədri Məmmədəli Rəhimov çıxışında yarışların əsas məqsədinin birinci kurs tələbələri arasından istedadlı tələbələri müəyyənləşdirmək, onları universitetin yığma komandasına cəlb etmək və idman məşqlərində iştiraka təşviq etmək olduğunu bildirib.

Qeyd edək ki, yarışlarda universitetin bütün fakültələrinin, eləcə də NDU nəzdində fəaliyyət göstərən Tibb Kolleci, Texniki Kollec və Musiqi Kollecinin komandaları olmaqla, ümumilikdə 13 komanda iştirak edir.

# Tələbələr arasında mini futbol yarışı başa çatıb







Naxçıvan Dövlət Universitetində tələbələr arasında idmanın müxtəlif növləri üzrə keçirilən ənənəvi seçmə yarışlar böyük həyəcan və coşqu ilə davam edir. Tələbə həyatının canlılığını artırmaq, gənclər arasında sağlam həyat tərzini təbliğ etmək və yeni qəbul olan tələbələrin universitet mühitinə inteqrasiyasını təmin etmək məqsədilə təşkil edilən turnirdə növbəti qaliblər bəlli olub.

Proqrama uyğun olaraq gənclərin böyük maraqla gözlədiyi və dörd gün davam edən mini futbol birinciliyinə yekun vurulub. Turnirdə universitetin bütün fakültələri ilə yanaşı, NDU nəzdində fəaliyyət göstərən Tibb Kolleci, Texniki Kollec və Musiqi Kollecinin komandaları da daxil olmaqla, ümumilikdə 13 komanda çempionluq uğrunda mübarizə aparıb.

Mərhələli şəkildə keçirilən gərgin və maraqlı qarşılaşmalardan sonra turnirin həlledici final mərhələsi baş tutub. Çempionluq uğrunda keçirilən son matçda Pedaqoji fakültə və İqtisadiyyat fakültəsinin komandaları üz-üzə gəlib. Azarkeşlərin dəstəyi və yüksək komanda ruhu şəraitində keçən həlledici qarşılaşmada üstün oyun nümayiş etdirən Pedaqoji fakültənin təmsilçiləri rəqibini məğlub edərək turnirin qızıl medalını və çempionluq titulunu qazanıblar. İqtisadiyyat fakültəsinin komandası isə yarışı ikinci pillədə başa vurub.

Gərgin keçən paralel görüşlərin nəticələrinə əsasən, Memarlıq və mühəndislik fakültəsi ilə Tibb fakültəsinin komandaları turnirin üçüncü yerinə layiq görülüblər.

# Qızlar arasında voleybol turniri başlayıb

Naxçıvan Dövlət Universitetində birinci kurs tələbələrinin idmana olan marağını artırmaq, onların fiziki fəallığını və sağlam həyat tərzini təşviq etmək məqsədilə ənənəvi seçmə yarışlara start verilib. Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən turnirdə qızlar qələbə uğrunda qüvvələrini sınayıblar.

Turnirdə universitetin müxtəlif fakültələrini, eləcə də NDU nəzdində fəaliyyət göstərən Tibb Kollecini təmsil edən ümumilikdə 11 komanda qələbə uğrunda qüvvəsini sınayıb. Olimpiya sistemi üzrə keçirilən turnirdə komandalar növbəti mərhələyə vəsiqə qazanmaq uğrunda mübarizə aparıblar.

Yarışın ilk mərhələsində 5 maraqlı oyun keçirilib və qaliblər müəyyənləşib. Gərgin idman mübarizəsinin növbəti günündə isə daha 6 komanda meydana çıxaraq mübarizəni davam etdirib. Universitet rəhbərliyi və İdman Klubu tərəfindən müntəzəm olaraq təşkil edilən bu cür turnirlər tələbə gənclərin asudə vaxtının səmərəli təşkili, komanda ruhunun gücləndirilməsi və gələcəkdə universitet yığma komandalarına istedadlı idmançıların cəlb olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Mübarizəli və həyəcanlı anlarla yadda qalan turnirin qalibləri yarışların son günündə keçiriləcək mükafatlandırma mərasimində diplom və kuboklarla təltif olunacaqlar.







# NDU tələbələrinin Çin səfəri






Naxçıvan Dövlət Universitetinin tələbələrindən ibarət nümayəndə heyəti Urumçi Şəhər Xarici İşlər İdarəsinin dəvəti ilə Çinin Urumçi şəhərində səfərdə olub. Səfər çərçivəsində nümayəndə heyəti Urumçi Elm və Texnologiya Muzeyində təşkil olunan qarşılanma mərasimində iştirak edib. Proqram zamanı iştirakçılar robotun nümayiş etdirdiyi performansı izləyib, 5D film nümayişində iştirak edib və ənənəvi Çin mədəniyyətinə xas olan Face Mask Dance – üz maskalarının dəyişdirilməsi rəqsi ilə tanış olublar.

Proqramın davamında Sincan Universitetinin tələbələri ilə NDU tələbələri arasında fikir və təcrübə mübadiləsi də təşkil olunub.

Görüş zamanı hər iki ali təhsil müəssisəsinin təhsil sistemləri, tələbə həyatı və həyata keçirilən layihələr müzakirə olunub. Tələbələr qarşılıqlı sualları cavablandırıb, gələcəkdə birgə akademik və mədəniyyət layihələrinin icrası imkanları ətrafında müzakirələr aparıblar.

Qeyd edək ki, bu cür beynəlxalq səfərlər Naxçıvan Dövlət Universitetinin tələbələrinə xarici ölkələrin qabaqcıl təhsil və texnologiya təcrübəsini yerində öyrənmək, eləcə də Azərbaycan mədəniyyətini beynəlxalq platformalarda layiqincə təmsil etmək imkanı yaradır.

# "Heyvan ekologiyası: Ətraf mühitdən sağlamlığa, sağlamlıqdan məhsuldarlığa" mövzusunda seminar-təlim





Naxçıvan Dövlət Universitetinin "Baytarlıq təbabəti" kafedrasında müəllim və tələbələrin iştirakı ilə professor İsa Özaydının təqdimatında "Heyvan ekologiyası: Ətraf mühitdən sağlamlığa, sağlamlıqdan məhsuldarlığa" mövzusunda seminar-təlim keçirilib.

Seminar-təlimin əsas məqsədi ətraf mühit amillərinin heyvanların sağlamlığına, fizioloji vəziyyətinə və məhsuldarlıq göstəricilərinə təsirini elmi-praktik aspektdən müzakirə etmək, həmçinin heyvanların sağlamlığının qorunmasında ekoloji amillərin rolu ilə bağlı bilikləri genişləndirmək olub.

Təlim zamanı heyvanların yaşadığı mühitlə onların sağlamlığı və məhsuldarlığı arasındakı qarşılıqlı əlaqə, ətraf mühit amillərinin baytarlıq təbabətində əhəmiyyəti, eləcə də heyvandarlıqda ekoloji yanaşmaların tətbiqi məsələləri müzakirə edilib.

Seminar-təlim müəllim və tələbələrin müvafiq sahə üzrə biliklərinin artırılması, elmi müzakirələrin təşviqi və nəzəri biliklərin praktik fəaliyyətlə əlaqələndirilməsi baxımından əhəmiyyətli olub.

# Görmə məhdudiyyətli şəxslər üçün "TwoEyes" layihəsi təqdim olunub

Naxçıvan Dövlət Universitetinin "Elektronika və energetika mühəndisliyi" kafedrasının müəllimi Asim Abdullanın müəllifi olduğu "TwoEyes" layihəsi universitetin Tibb fakültəsinin tələbələrinə təqdim edilib.

Görmə məhdudiyyətli şəxslərin müstəqil hərəkət imkanlarını genişləndirmək və gündəlik həyatlarını asanlaşdırmaq məqsədi daşıyan layihə müasir texnologiyalar əsasında hazırlanıb. Proqram istifadəçilərə ətraf mühitdə istiqamətlənmək, qarşılaşdıqları maneələr barədə məlumat almaq və zərurət yarandıqda operativ dəstək əldə etmək imkanı yaradır.

"TwoEyes" proqramı 24 saat fəaliyyət göstərən canlı operator dəstəyini, xüsusi naviqasiya sistemini və şəxsi assistent funksiyalarını birləşdirir. Səsli təlimatlar və digər texnoloji imkanlar vasitəsilə istifadəçilərin ətraf mühitdə daha təhlükəsiz və rahat hərəkət etməsi hədəflənir.

Təqdimat zamanı tibb və mühəndislik sahələri arasında əməkdaşlığın inklüziv texnoloji həllərin hazırlanmasındakı əhəmiyyəti vurğulanıb. Layihənin praktiki tətbiqi istiqamətində tibb mütəxəssisləri, mühəndislər, proqramçılar və tələbələrdən ibarət multidissiplinar işçi qrupunun yaradıldığı bildirilib.






Qeyd edək ki, "TwoEyes" layihəsi görmə məhdudiyyətli şəxslərin müstəqilliyinin artırılmasına, onların sosial həyata fəal inteqrasiyasına və inklüziv cəmiyyətin inkişafına töhfə verməyi qarşıya məqsəd qoyur.

# Tələbələr Atçılıq təsərrüfatında praktiki təcrübədə olublar



Naxçıvan Dövlət Universitetinin Baytarlıq təbabəti ixtisası üzrə V kurs tələbələri Badaşqan kəndi ərazisində yerləşən Atçılıq təsərrüfatında praktiki təcrübədə olublar.

Təcrübə NDU-nun "Baytarlıq təbabəti" kafedrasının müdiri, dosent Mahir Məhərrəmov, professorlar İsa Özaydın və Savaş Yıldızın rəhbərliyi ilə təşkil olunub.

Təcrübə zamanı professor Savaş Yıldız tələbələrə atların ümumi sağlamlıq vəziyyətinin yoxlanılması, genital orqanların müayinəsi və reproduktiv sistem xəstəliklərinin müəyyənləşdirilməsi qaydalarını izah edib.

Professor İsa Özaydın isə atçılıq təsərrüfatlarında tez-tez rast gəlinən dayaq-hərəkət sistemi xəstəlikləri, oynaq iltihabları və dırnaq patologiyalarını əyani şəkildə göstərib.

Praktiki təcrübənin əsas məqsədi tələbələrin atların sağlamlığının qorunması, xəstəliklərin profilaktikası və baytarlıq-sanitariya tədbirləri üzrə nəzəri biliklərini möhkəmləndirmək, peşəkar bacarıqlarını inkişaf etdirmək olub.



# Görkəmli alim və pedaqoq, professor Sevindik Vəliyevin 80 illik yubileyi qeyd olunub

Naxçıvan Dövlət Universitetində Azərbaycan Respublikasının Əməkdar müəllimi, professor Sevindik Vəliyevin 80 illik yubileyinə həsr olunan tədbir keçirilib.

Tədbirdən əvvəl mərhum professorun məzarı ziyarət edilib, xatirəsi ehtiramla yad olunub və məzarı üzərinə gül dəstələri qoyulub.




Tədbir Sevindik Vəliyevin həyat və fəaliyyətinə həsr olunan videoçarxın nümayişi ilə başlayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında Sevindik Vəliyevin zəngin həyat və fəaliyyət yolundan, elm və təhsil sahəsinə verdiyi töhfələrdən, ziyalı şəxsiyyətini səciyyələndirən yüksək insani keyfiyyətlərdən bəhs edib.

Rektor vurğulayıb ki, Əməkdar müəllim nüfuzlu alim və təcrübəli pedaqoq olmaqla yanaşı, səmimiyyəti, müdrikliyi və ictimai mövqeyi ilə seçilən ziyalı kimi universitetin elmi-pedaqoji mühitində özünəməxsus yer tutub.

Tədbirdə çıxış edən universitetin Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov və Pedaqoji fakültənin dekanı Vəli Əliyev professorun elmi-pedaqoji fəaliyyətindən, təhsil sahəsindəki xidmətlərindən və universitetin inkişafına verdiyi töhfələrdən söz açıblar. Bildirilib ki, onun elmə və təhsilə verdiyi töhfələr, müəllimlik fəaliyyəti və ətrafındakılara örnək olan şəxsiyyəti daim ehtiramla xatırlanır.









"Sosial və ictimai münasibətlər" kafedrasının professorları Məmməd Rzayev və Qərib Allahverdiyev mərhumla bağlı dostluq xatirələrindən bəhs ediblər. "Azərbaycan ədəbiyyatı" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Xanəli Kərimli, Tarix-filologiya fakültəsinin dekanı Arif Ağalarov və "Azərbaycan dilçiliyi" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Mehriban Əsədullasoy çıxışlarında professorla bağlı xatirələrini bölüşərək onun xarakterinin fərqli cəhətlərinə toxunublar.

Onlar professorun səmimi münasibətini, dostluğa



sədaqətini, çətinliklər qarşısında iradəsini və ətrafındakı insanlara həssas yanaşmasını xatırladaraq onun şəxsiyyətinin yalnız elmi fəaliyyəti ilə deyil, insanlarla qurduğu münasibətlərlə də seçildiyini vurğulayıblar. "Jurnalistika və xarici ölkə ədəbiyyatı" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru İman Cəfərov professorun fəaliyyətini pedaqoji, elmi-tədqiqat və alimlik istiqamətləri üzrə dəyərləndirib, onun elmi axtarışları və təhsil sahəsindəki xidmətlərinə diqqət çəkib.

Professorun oğlu Rəmzi Vəliyev atasının xatirəsinə göstərilən diqqət və ehtirama, yubiley tədbirinin təşkilinə görə universitet rəhbərliyinə minnətdarlığını bildirib.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Fizika-riyaziyyat fakültəsi əməkdaşlarının yubiley tədbiri

Naxçıvan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinin əməkdaşları – riyaziyyat üzrə fəlsəfə doktoru Miryasin Eminovun 75, riyaziyyat üzrə fəlsəfə doktoru Elşad Ağayevin 70, fizika üzrə fəlsəfə doktoru, dosent Aygün Sultanovanın 65 illik yubileylərinə həsr olunmuş tədbir keçirilib.

Universitetin rektoru Elbrus İsayev tədbiri giriş sözü ilə açaraq yubilyarları təbrik edib, onların uzunillik elmi-pedaqoji fəaliyyətlərinin Naxçıvan Dövlət Universitetinin inkişafında, gənc mütəxəssislərin yetişdirilməsində mühüm rol oynadığını vurğulayıb. Rektor hər üç müəllimin fəaliyyətini yüksək qiymətləndirərək onlara gələcək elmi-pedaqoji fəaliyyətlərində yeni uğurlar arzulayıb.











Yubilyarlara təşəkkürnamələr və müxtəlif hədiyyələr təqdim olunub.

Daha sonra Fizika-riyaziyyat fakültəsinin dekanı, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Vüqar Salmanov yubilyarların həyat yolları, elmi və pedaqoji fəaliyyətləri haqqında ətraflı məlumat verib. Onların təhsil və elm sahəsində qazandıqları uğurların, eləcə də zəngin təcrübələrinin gənclər üçün örnək olduğunu bildirib.

Tədbirdə həmçinin "Ümumi riyaziyyat" kafedrasının müdiri, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Abdulla Həsənov, "Ümumi və nəzəri fizika" kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent Billurə Hacıyeva və digər çıxışçılar hər üç müəllimin elmi-pedaqoji fəaliyyəti və şəxsi keyfiyyətləri haqqında xoş fikirlərini bölüşüblər.

Sonda çıxış edən yubilyarlar göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbir xatirə fotosunun çəkilməsi ilə yekunlaşıb.

# KİTAB TƏQDİMATLARI

## “Mənalı və şərəfli ömürdən səhifələr”

Naxçıvan Dövlət Universitetində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə ölkənin ictimai-siyasi həyatında fəal iştirak etmiş, 1990-cı illərdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışmış Mehrac Əliyevin həyat və fəaliyyətinə həsr olunan “Mənalı və şərəfli ömürdən səhifələr” kitabının təqdimatı keçirilib. Tədbir çərçivəsində Mehrac Əliyevin 75 illik yubileyi də qeyd olunub.












Tədbiri giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, bu siyasətin Azərbaycanın dövlət suverenliyinin möhkəmləndirilməsində və milli dövlətçilik ənənələrinin qorunmasında mühüm rol oynadığını qeyd edib. Rektor Mehrac Əliyevin ölkənin mürəkkəb tarixi mərhələlərindəki zəngin ictimai-siyasi fəaliyyətindən bəhs edərək “Mənalı və şərəfli ömürdən səhifələr” kitabının Azərbaycanın yaxın tarixinin öyrənilməsi və tarixi yaddaşın gələcək nəsillərə ötürülməsi baxımından əhəmiyyətini vurğulayıb.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov məruzə ilə çıxış edərək Mehrac Əliyevin fəaliyyətini dövrün ictimai-siyasi reallıqları fonunda dəyərləndirib. Anar İsgəndərov Azərbaycanın müstəqilliyinin ilk illərində dövlət idarəçiliyində çalışan şəxslərin üzərinə düşən məsuliyyətdən, həmin dövrdə bölgələrdə siyasi proseslərin inkişafından və ictimai həmrəyliyin təmin olunmasının vacibliyindən bəhs edib.

Daha sonra Naxçıvan Dövlət Universitetinin ”Sosial və ictimai məsələlər” kafedrasının professoru, fəlsəfə elmləri doktoru Məmməd Rzayev, Bakı Mühəndislik Universitetinin Magistratura və doktorantura şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Şikar Qasımov, Ordubad rayon Veteranlar təşkilatının sədri Fərrux Nağızadə, Yeni Azərbaycan Partiyası Ordubad rayon təşkilatının sədri Etibar İsmayılov, təqaüdçü Şahsuvar Rüstəmov, bələdiyyə sədri Tofiq Babayev və təqaüdçü Ədalət Əliyev çıxış ediblər. Çıxışlarda Mehrac Əliyevin şəxsi keyfiyyətləri, təşkilatçılıq bacarığı, ictimai-siyasi fəaliyyəti, Yeni Azərbaycan Partiyasının Ordubad rayonunda təşkilatlanması və fəaliyyətinin formalaşmasındakı xidmətləri diqqətə çatdırılıb.

Sonda Mehrac Əliyev tədbirin təşkilinə və göstərilən diqqətə görə minnətdarlığını bildirib. Ulu Öndər Heydər Əliyevlə görüşlərindən və birgə fəaliyyət dövründə yaşadığı əlamətdar hadisələrdən danışaraq dövlətçilik ənənələrinə sadiqliyin, milli birliyin qorunmasının və Prezident İlham Əliyevin ətrafında sıx birləşməyin vacibliyini vurğulayıb.

Tədbirin sonunda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev tərəfindən Mehrac Əliyevə və Anar İsgəndərova hədiyyələr təqdim olunub.

Xatirə fotosu çəkdirilib.

Maraqlı və zəngin xatirələrlə yadda qalan təqdimat mərasimi tələbə gənclərin milli-vətənpərvərlik ruhunda tərbiyə olunması baxımından böyük təəssürat oyadıb.

## “Şəhərsalma və Memarlıq İli” çərçivəsində Hacıfəxrəddin Səfərlinin yeni nəşrləri təqdim edilib

Naxçıvan Dövlət Universitetində tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərlinin müəllifi olduğu “Əcəmi Əbubəkr oğlu Naxçıvani: şəxsiyyəti və irsi” kitabının və yenidən işlənərək əlavələrlə təkrar nəşr olunan “Naxçıvan şəhərinin epiqrafik abidələri” monoqrafiyasının təqdimatı keçirilib.




Tədbiri giriş sözü ilə açan NDU-nun rektoru Elbrus İsayev hər iki nəşrin elmi əhəmiyyətindən, Naxçıvanın zəngin tarixi-mədəni irsinin öyrənilməsində və təbliğində rolundan danışıb. Rektor görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin həyat və yaradıcılığının araşdırılmasına həsr olunan “Əcəmi Əbubəkr oğlu Naxçıvani: şəxsiyyəti və irsi” kitabının əhəmiyyətini vurğulayıb. Bildirib ki, Azərbaycan memarlıq məktəbinin banilərindən biri olan Əcəmi Naxçıvaninin yaradıcılığının elmi əsaslarla tədqiqi milli memarlıq irsinin tanıdılması, qorunması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. “Şəhərsalma və Memarlıq İli” çərçivəsində nəşr olunan kitab görkəmli memarın irsinin daha dərindən öyrənilməsinə töhfə verir.



Elbrus İsayev elmi redaktoru olduğu “Naxçıvan şəhərinin epiqrafik abidələri” monoqrafiyasının da elmi əhəmiyyətindən bəhs edib. Qeyd edib ki, əsərdə Azərbaycanın və bütövlükdə Yaxın Şərqin qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan şəhərinin tarixi, 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı seçilməsi, günümüzədək qorunub saxlanılan müsəlman epiqrafikası abidələri, eləcə də şəhər muzeylərində nümayiş etdirilən və təsadüfən aşkar olunan kitabələr haqqında ətraflı məlumat verilir.

Bildirilib ki, epiqrafik abidələr Naxçıvanın qədim tarixinin və zəngin mədəni irsinin öyrənilməsində mühüm mənbələrdəndir. Memarlıq abidələri və qəbirüstü daşlar üzərindəki kitabələr inşa tarixləri, sifarişçilər, memarlar, həmçinin dövrün ictimai-mədəni həyatı barədə qiymətli məlumatları özündə əks etdirir.

Beş fəsildən ibarət monoqrafiyada Yusif Küseyir oğlu və Möminə xatun türbələrinin, Qoşa minarəli baştağın, İmamzadə kompleksinin və Came (Cəfəriyyə) məscidinin kitabələri, eləcə də Naxçıvan Dövlət Tarix Muzeyində, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində və Açıq Səma Altında Muzeydə qorunan epiqrafik nümunələr tədqiq olunur.

Yeddi fəsildən ibarət “Əcəmi Əbubəkr oğlu Naxçıvani: şəxsiyyəti və irsi” kitabı görkəmli memarın 900 illik yubileyinə həsr olunub. Əsərdə Əcəmi Naxçıvaninin yaradıcılığı, Azərbaycan memarlıq tarixindəki yeri, eləcə də Naxçıvan memarlıq məktəbinin yetirmələri araşdırılıb. Kitabda Prezident İlham Əliyevin şəhərsalma və memarlıq sahəsinin inkişafı, milli memarlıq irsinin qorunması və təbliği ilə bağlı imzaladığı sərəncamlar da əksini tapıb.



Tədbirdə “Azərbaycan tarixi” kafedrasının müdiri, tarix elmləri doktoru, professor Xəzər Hüseynov, “Memarlıq” kafedrasının dosenti, memarlıq üzrə fəlsəfə doktoru Gülnarə Qənbərova, Tarix-filologiya fakültəsinin dekan müavini, tarix üzrə fəlsəfə doktoru Qadir Əkbərov və digər çıxışçılar nəşrlərin elmi əhəmiyyətindən, Naxçıvanın tarixi-mədəni irsinin tədqiqi və gələcək nəsillərə çatdırılmasındakı rolundan bəhs ediblər.

Müəllif Hacıfəxrəddin Səfərli kitabların hazırlanmasına göstərilən diqqət və qayğıya, həmçinin təqdimatın təşkilinə görə minnətdarlığını bildirib.

# Mülki müdafiəyə dair yeni nəşrin təqdimatı

Naxçıvan Dövlət Universitetində "Çağırışaqədərki hazırlıq və mülki müdafiə" kafedrasının dosenti Oktay Rzayevin müəllifi olduğu "Fövqəladə halların nəticələrinin aradan qaldırılması və idarə edilməsi" adlı dərs vəsaitinin təqdimatı keçirilib.




Tədbirdə Elmi Kitabxananın direktoru, filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent Xumar Məmmədova, Pedaqoji fakültənin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev, "Çağırışaqədərki hazırlıq və mülki müdafiə" kafedrasının müdiri, dosent Valeh Əlixanov və "Məşqçilik" kafedrasının professoru, pedaqogika üzrə fəlsəfə doktoru Məmmədəli Rəhimov çıxış edərək nəşrin elmi-praktiki əhəmiyyətindən danışıblar.




Bildirilib ki, dərs vəsaitində təbii və texnogen fövqəladə hallar, zəlzələlər, mülki müdafiə sistemində rabitə və xəbərdarlığın təşkili, xilasetmə işləri, fövqəladə halların nəticələrinin aradan qaldırılması və bərpa tədbirləri, kimyəvi, radioloji və bioloji təhlükələrdən mühafizə, sanitariya və tibbi yardım məsələləri əhatə olunub. Nəşrdə Naxçıvan Muxtar Respublikasında zəlzələlərin makroseysmik təsiri və ərazi üzrə paylanmasına dair məlumatlara da yer verilib.

Təqdimatda müəllifin oğlu Həbib Rzayev atasının səkkizinci kitabının nəşr olunmasından qürur duyduğunu bildirib və ona uğurlar arzulayıb. Müəllif Oktay Rzayev göstərilən diqqət və qayğıya görə təşəkkürünü ifadə edib.



Tədbirin sonunda iştirakçılara yeni dərs vəsaitinin tədris prosesində və gənc mütəxəssislərin peşəkar hazırlığında mühüm mənbə olacağı bir daha diqqətə çatdırılıb. Sonda xatirə fotosu çəkdirilib.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# IELTS hazırlığına dair yeni tədris vəsaiti




Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında "İngilis dili və metodika" kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Cavid Babayevin müəllifi olduğu "Enhancing IELTS Reading Proficiency" kitabının təqdimatı keçirilib.

Tədbirdə giriş sözü ilə çıxış edən beynəlxalq əlaqələr üzrə prorektor, "İngilis dili və tərcümə" kafedrasının baş müəllimi Aidə Cəlilzadə universitet nəzdində fəaliyyət göstərən IELTS Mərkəzinin fəaliyyəti, imtahanların mütəmadi təşkili və tələbələrin beynəlxalq imtahanlara hazırlığı üçün yaradılan imkanlar barədə məlumat verib. O, keyfiyyətli tədris resurslarının əhəmiyyətini vurğulayaraq yeni nəşrin tələbələrin ingilis dili üzrə oxuyub-anlama bacarıqlarının inkişafına və IELTS imtahanına sistemli hazırlığına töhfə verəcəyini bildirib.




Xarici dillər fakültəsinin dekan müavini, filologiya üzrə fəlsəfə doktoru Yasin Babazadə, "İngilis dili və metodika" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Türkan İsmayıllı, NDU-nun Tərcümə Mərkəzinin tərcüməçisi, "İngilis dili və tərcümə" kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Süsənbər Ağamalıyeva və NDU Elmi Kitabxanasının baş kitabxanaçısı, kitabın redaktoru Şəbnəm Məmmədova çıxışlarında nəşrin məzmunu və tədris baxımından əhəmiyyətindən bəhs ediblər.

Qeyd olunub ki, kitabda gündəlik həyat, rəqəmsallaşma və müasir dövrün aktual məsələlərini əhatə edən 50 mətn yer alıb. Mətnlər çətinlik dərəcəsinə görə asan, orta və çətin olmaqla üç səviyyədə qruplaşdırılıb. Vəsaitdə təkrarsız 20 min söz və akademik terminlərdən istifadə olunması tələbələrin leksik ehtiyatının genişləndirilməsinə xidmət edir.

Tədbirdə çıxış edən müəllifin həyat yoldaşı Səyyarə Sadıxova uzun illər davam edən zəhmətin bəhrəsini görməkdən məmnunluğunu ifadə edib. O, Cavid Babayevin əzmkarlığını vurğulayaraq nəşrin ərsəyə gəlməsini onun səbr və əməyinin nəticəsi kimi dəyərləndirib.

Müəllif Cavid Babayev kitab üzərində 12 il ərzində işlədiyini, kitabın əsasən IELTS imtahanının oxuyub-anlama bölməsinə hazırlaşanlar, xüsusilə Pre-IELTS səviyyəsində olan tələbələr üçün nəzərdə tutulduğunu qeyd edib. Cavid Babayev göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə minnətdarlığını bildirib.

Sonda müəllifə gül dəstəsi və hədiyyə təqdim olunub.

# İngilis dili üzrə yeni dərsliyin təqdimatı keçirilib

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında "İngilis dili və tərcümə" kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Tehranə Xudaverdiyevanın müəllifi olduğu "Integrated language skills for ELT students" adlı dərsliyin təqdimatı keçirilib.

Təqdimat mərasimində çıxış edən beynəlxalq əlaqələr üzrə prorektor, "İngilis dili və tərcümə" kafedrasının baş müəllimi Aidə Cəlilzadə müəllifi yeni nəşr münasibətilə təbrik edərək dərsliyin ingilis dilinin tədrisi baxımından əhəmiyyətini vurğulayıb. Prorektor kitabda dil bacarıqlarının kompleks şəkildə inkişaf etdirilməsinə diqqət çəkərək kitabın növbəti nəşrlərinin daha da təkmilləşdirilməsi ilə bağlı öz təkliflərini irəli sürüb.

Xarici Dillər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent İlhamə Məmmədova, dekan müavini, filologiya üzrə fəlsəfə doktoru Yasin Babazadə, NDU-nun Tərcümə Mərkəzinin tərcüməçisi, "İngilis dili və tərcümə" kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Süsənbər Ağamalıyeva, kafedranın baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Sərcan Sadiqova və digər çıxışçılar nəşrin məzmunu, elmi-metodiki xüsusiyyətləri və tədris prosesində tətbiqi imkanları barədə fikirlərini bölüşüblər.

Qeyd olunub ki, dərslik əsasən B2-C1 dil səviyyəsinə malik şəxslər, xüsusilə İngilis dili müəllimliyi, İngilis filologiyası və Dilçilik ixtisasları üzrə təhsil alan tələbələr, eləcə də IELTS imtahanına hazırlaşanlar üçün nəzərdə tutulub. Nəşr elm, təbiət, texnologiya, insan şüuru və ünsiyyət kimi müxtəlif istiqamətləri əhatə edən 30 mövzudan ibarətdir. Hər bir mövzu üzrə müzakirə sualları, akademik lüğət ehtiyatının zənginləşdirilməsinə yönəlmiş çalışmalar, qrammatik tapşırıqlar, oxuyub-anlama, yazı və danışıq fəaliyyətləri təqdim edilir.




Dərsliyin əsas üstünlüklərindən biri dil öyrənmənin ayrı-ayrı istiqamətlərini vahid tədris yanaşmasında birləşdirməsidir. Kitabda akademik mətnlər əsasında hazırlanmış oxuyub-anlama tapşırıqları, IELTS formatına uyğun çalışmalar, strukturlaşdırılmış yazı nümunələri, esse mövzuları, danışıq kartları və tələffüz üzrə fəaliyyətlər yer alıb. Bu yanaşma tələbələrin yalnız dil biliklərini deyil, həm də analitik və tənqidi düşünmə, fikirlərini əsaslandırma və akademik ünsiyyət bacarıqlarını inkişaf etdirməyə xidmət edir.



Müəllif Tehranə Xudaverdiyeva təqdimat iştirakçılarına göstərilən diqqətə, səsləndirilən dəyərli fikirlərə və tövsiyələrə görə minnətdarlığını bildirib.

Sonda müəllifə gül dəstəsi təqdim olunub.

# 60 ilin astanasında Naxçıvan Dövlət Universiteti

Elə ünvanlar var ki, insan üçün onların dəyəri yalnız gördüyü işlərlə, qazandığı uğurlarla ölçülmür. Zaman keçdikcə həmin ünvanlar xatirələrlə, duyğularla, insanın düşüncələrində iz qoyan hadisələrlə də doğmalaşır. Naxçıvan Dövlət Universiteti haqqında düşünəndə ilk növbədə belə bir doğmalıq, illərin yaddaşı və bu günün yenilikləri bir araya gəlir.



Bu gün genişlənən imkanları, zəngin elmi-pedaqoji mühiti və yenilikləri ilə diqqət çəkən Naxçıvan Dövlət Universitetinin inkişaf yolu sadə, lakin böyük ümidlər doğuran bir başlanğıcdan götürür. 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı fəaliyyətə başlayanda ilk tədris ilində üç ixtisas üzrə 102 tələbə qəbul edilmiş, üç ştat müəllimi çalışmışdı. Naxçıvanda ali təhsilin təşkili bölgənin ixtisaslı kadrlara olan tələbatının ödənilməsi və gənclərin doğma yurdda ali təhsil alması baxımından mühüm addım idi. Kiçik bir filial kimi fəaliyyətə başlayan müəssisə sonrakı illərdə bölgənin təhsil həyatında daha geniş yer tutmağa başladı. İnkişafın növbəti mərhələsi 1972-ci ildə filialın bazasında Naxçıvan Dövlət Pedaqoji İnstitutunun yaradılması, 1990-cı ildə isə institutun Naxçıvan Dövlət Universitetinə çevrilməsi ilə bağlıdır. Hər mərhələ ali təhsil müəssisəsinin qarşısında duran vəzifələrin genişlənməsi ilə müşayiət olunurdu: ilkin dövrdə pedaqoji kadr hazırlığı əsas yer tuturdusa, sonrakı illərdə müxtəlif sahələr üzrə mütəxəssis hazırlığı və elmi fəaliyyət də universitetin işinin mühüm istiqamətlərinə çevrildi.

Hazırda Naxçıvan Dövlət Universitetinin fəaliyyətinə fakültə və kafedralarla yanaşı, bakalavriat, magistratura və doktorantura pillələri, kolleclər, məktəb və gimnaziya, elmi-tədqiqat institutları daxildir. Universitetin strukturunun genişlənməsi onun təhsil, elm və cəmiyyət qarşısında daşıdığı vəzifələri də artırıb. İnkişafın nəticələri yalnız əvvəlki illərlə müqayisədə əldə olunan kəmiyyət göstəricilərində deyil, təhsilin keyfiyyətində, elmi araşdırmaların nəticələrində və cəmiyyətin ehtiyaclarına verilən töhfələrdə də özünü göstərir.



2027-ci ildə Naxçıvan Dövlət Universitetinin yaranmasının 60 ili tamam olacaq. Bu yubiley universitetin keçdiyi yolu dəyərləndirmək, əldə olunan nəticələri təhlil etmək və gələcək hədəfləri müəyyənləşdirmək üçün mühüm mərhələdir. Köklü tarix universitetin gələcək uğurlarına öz-özünə təminat vermir. Tarixi təcrübənin əhəmiyyəti onun yeni dövrün tələblərinə uyğun davam etdirilməsi və zənginləşdirilməsi ilə müəyyənləşir. Naxçıvan Dövlət Universitetinin son illərdəki fəaliyyəti qarşıdakı inkişaf istiqamətlərini də göstərir. Universitet tədrislə yanaşı, elmi-tədqiqatlara, beynəlxalq əməkdaşlığa, innovasiyaya və rəqəmsal imkanların artırılmasına diqqət yetirir.

2023-2027-ci illəri əhatə edən strateji inkişaf planında təhsil, tədqiqat, beynəlmiləlləşmə və resursların inkişafı əsas prioritetlər kimi müəyyənləşdirilib. Universitetin tədqiqat yönümlü ali təhsil müəssisəsinə çevrilməsi də həmin planın əsas məqsədlərindəndir. Bu istiqamətin seçilməsi, əslində, NDU-nun özünəmünasibətində müəyyən dəyişiklikdən xəbər verir. Çünki tədqiqat universiteti olmaq yalnız elmi məqalələrin sayını artırmaq demək deyil. Bunun arxasında elmi mühitin dəyişməsi, müəllimin tədqiqat fəaliyyətinin stimullaşdırılması, gənc tədqiqatçıların yetişdirilməsi, müasir informasiya resurslarına çıxışın təmin olunması, beynəlxalq elmi şəbəkələrə qoşulmaq və ən əsası



elmə universitet həyatının ayrılmaz hissəsi kimi yanaşmaq dayanır.

Universitetin rektoru Elbrus İsayevin bu istiqamətin universitetin gündəliyində daha aydın görünməsi də təsadüfi deyil. Onun rəhbərliyi ilə NDU-da son illərdə elmi fəaliyyətin genişləndirilməsi, beynəlxalq elmi resurslara çıxışın artırılması, tələbələrin tədqiqat prosesinə cəlb edilməsi və gənc alimlərin dəstəklənməsi istiqamətində görülən işlər universitetin gələcək inkişaf modelinin yalnız kəmiyyət deyil, məzmun baxımından da dəyişməsinə yönəlib.

NDU-da 2025-ci ilin elmi nəticələri nəşrlərin ümumi sayı və beynəlxalq elmi bazalarda təmsilçilik göstəriciləri ilə diqqət çəkir. İlin yekunlarına dair hesabatda universitet üzrə il ərzində 3000-dən artıq elmi nəşrin qeydə alındığı bildirilir. Onların 150-dən çoxunu monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri, proqramlar və metodiki vəsaitlər təşkil edir. Nəşr olunan 2000-dən çox elmi məqalənin 1300-ü xarici elmi nəşrlərdə, 300-dən çoxu isə Web of Science və Scopus bazalarında indekslənən jurnallarda dərc olunub. Bundan əlavə, 600-dən çox tezis nəşr edilib, onların 370-i xarici nəşrlərdə çap olunub.

Bu göstəricilər universitetdə elmi nəşr fəaliyyətinin miqyasını və beynəlxalq elmi nəşrlərdə təmsilçiliyin genişliyini əks etdirir. Nəşrlərin say göstəriciləri ilə yanaşı, onların elmi yeniliyi, keyfiyyəti və elmə verdiyi töhfə də tədqiqat fəaliyyətinin nəticələrini anlamaq üçün əhəmiyyətlidir. Nəşrlərin kəmiyyət göstəriciləri elmi fəaliyyətin miqyası haqqında təsəvvür yaratsa da, tədqiqatların elmi səviyyəsini tam əks etdirmir. Əsas məsələ araşdırmaların yeniliyi, əldə olunan nəticələrin elmi əhəmiyyəti və elmə verdiyi töhfədir. Universitetdə nəşr fəallığının davamlı inkişafı bu keyfiyyət göstəricilərinin də diqqətdə saxlanılması ilə daha məzmunlu nəticələr verə bilər.

2025-ci ildə NDU-da EBSCO, Clarivate, ProQuest və Taylor & Francis resurslarına çıxışın təmin edilməsi universitetin elmi-informasiya bazasının genişləndirilməsi baxımından əhəmiyyətli addımdır. Həmin resurslar tədqiqatçıların öz sahələri üzrə yeni elmi nəşrlərlə tanış olmasına, mövcud araşdırmaları müqayisəli şəkildə öyrənməsinə və tədqiqatlarını aktual elmi nəticələr əsasında qurmasına şərait yaradır. Bu resurslardan səmərəli istifadə tədqiqatçıların elmi ədəbiyyatla işini asanlaşdırır və araşdırmaların daha geniş elmi kontekstdə aparılmasına şərait yaradır.

Universitetdə elmi ənənələrin davamlılığı tələbələrin tədqiqat fəaliyyətinə nə dərəcədə cəlb olunmasından da asılıdır. 2025-ci ilin yekunlarına dair məlumatda Tələbə Elmi Cəmiyyəti vasitəsilə araşdırmalar aparan tələbələrin sayının əyani təhsil alanların 24 faizinə çatması diqqətəlayiq göstəricidir. Tələbə məqalələrinin respublika və xarici nəşrlərlə yanaşı, Scopus bazasında indekslənən yüksək impakt faktorlu jurnallarda dərc olunması gənclərin elmi fəaliyyətə cəlb edilməsinin konkret nümunələridir. Tələbələrin elmi araşdırmalara erkən başlaması onların tədqiqat bacarıqlarının inkişafına və gələcək elmi fəaliyyətlərinə zəmin yaradır. Bakalavr pilləsində yazılan ilk məqalə belə sonrakı illərdə daha geniş araşdırmaların başlanğıcına çevrilə bilər. Buna görə tələbələrin elmi təşəbbüslərinin dəstəklənməsi yalnız fərdi uğurlar baxımından deyil, universitetin elmi potensialının inkişafı üçün də əhəmiyyətlidir.

Universitetin inkişafında rəhbərliyin qarşıya qoyduğu məqsədlər qədər tələbələrin təşəbbüslərinə münasibəti və onların ideyalarını reallaşdırmaq üçün yaradılan imkanlar da mühüm əhəmiyyət daşıyır. Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin rəhbərliyi ilə tələbələrin yaradıcılıq potensialının üzə çıxarılması, innovativ düşüncənin təşviqi və gənclərin öz layihələri ilə fərqlənməsinə şərait yaradılması diqqət çəkən istiqamətlərdəndir. İnnovasiya sahəsində əldə olunan nəticələr NDU-da tələbə ideyalarının inkişafına göstərilən dəstəyi əks etdirir. Müasir ali təhsildə biliklərin mənimsənilməsi ilə yanaşı, onların praktik məsələlərin həllində tətbiqi, komanda işi və yeni layihələrin hazırlanması da mühüm yer tutur. Bu bacarıqların universitet mühitində inkişaf etdirilməsi tələbələrin peşəkar hazırlığına və gələcək fəaliyyətinə zəmin yaradır.

2025-ci ildə "İnnostart" layihəsinin final mərhələsində NDU-nu təmsil edən "ImYen" və "Specdeaf" komandalarının hər birinin 12 500 manat investisiya dəyərində mükafat qazanması və Türkiyənin Bilişim Vadisində inkubasiya proqramında iştirak hüququ əldə etməsi diqqətəlayiq nəticələrdəndir. Həmin il NDU tələbə komandalarının ölkədaxili və beynəlxalq startap yarışlarında qazandıqları mükafatların ümumi dəyərinin 40 min manat olması da tələbə layihələrinin əldə etdiyi nəticələrin miqyasını göstərir.

2026-cı ildə "Enactus Azərbaycan" Milli Yarışında NDU komandasının qalib gəlməsi və altıncı dəfə çempion olaraq Azərbaycanı "Enactus World Cup 2026"da təmsil etmək hüququ qazanması tələbə təşəbbüslərinin inkişafı baxımından diqqətəlayiq nəticədir. Bununla belə, yarış uğurları universitetin innovasiya imkanlarını bütövlükdə qiymətləndirmək üçün kifayət etmir. Bu nəticələrin davamlılığı tələbələrin ideyalarını inkişaf etdirmək, onları real layihələrə çevirmək və gələcək mərhələlərə daşımaq üçün yaradılan şəraitdən də asılıdır. Elbrus İsayevin startapçı tələbələrlə görüşlərə, "İnnostart", "Ekoloji Hakaton", Robotex International,




"Enactus", StartupFest Naxçıvan və digər layihələrə diqqət ayırması tələbə təşəbbüslərinin dəstəklənməsi baxımından əhəmiyyətlidir. Belə təşəbbüslərin nəticəsi yalnız yarışlarda qazanılan uğurlarla deyil, tələbələrin ideyalarını inkişaf etdirmək, yeni bacarıqlar qazanmaq və layihələrini davam etdirmək imkanları ilə də qiymətləndirilə bilər. Tələbə ideyalarının dinlənilməsi və uğurlu təşəbbüslərin sonrakı mərhələlərdə dəstəklənməsi universitetdə daha fəal və yaradıcı akademik mühitin formalaşmasına kömək edir.

Xarici universitetlərlə əməkdaşlığın nəticələri imzalanan sənədlərin sayı ilə məhdudlaşmır. Tələbələrin xaricdə qazandıqları təcrübəni təhsildə tətbiq etməsi, müəllimlərin yeni bilik və tədris üsullarını mənimsəməsi, birgə elmi-tədqiqatların həyata keçirilməsi bu əlaqələrin səmərəsini müəyyənləşdirən əsas istiqamətlərdəndir. NDU-nun Türkiyə və digər ölkələrin ali təhsil müəssisələri ilə əməkdaşlığı həmin təcrübənin tədrisə və elmi fəaliyyətə inteqrasiyası üçün şərait yaradır. 2026-cı ilin əvvəlində NDU ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya İnstitutu arasında imzalanan Əməkdaşlıq Memorandumu universitetin elmi fəaliyyəti baxımından əhəmiyyətlidir. Birgə tədqiqatların aparılması, laboratoriyaların yaradılması, tələbə və gənc tədqiqatçıların elmi işlərə cəlb olunması nəzərdə tutulan əməkdaşlığın əsas istiqamətlərindəndir. Bu əməkdaşlığın nəticələri gələcəkdə həyata keçirilən tədqiqatlarda, yeni elmi layihələrdə və gənc tədqiqatçıların hazırlığında özünü göstərəcək.

Universitetin elmi və ictimai həyatında rəhbərliklə müəllimlər və tələbələr arasında birbaşa ünsiyyətin xüsusi yeri var. "Açıq mikrofon" görüşləri tələbələrə onları düşündürən məsələləri, qarşılaşdıqları çətinlikləri və təkliflərini universitet rəhbərliyinə çatdırmaq imkanı verir. Belə görüşlərin əhəmiyyəti səsləndirilən fikirlərin dinlənilməsi ilə yanaşı, onların gündəlik universitet həyatında nəzərə alınmasında da özünü göstərir. Tələbələrin, müəllimlərin və gənc tədqiqatçıların ehtiyaclarını yaxından bilmək tədrisin təşkili, elmi fəaliyyət və universitet mühitinin yaxşılaşdırılması ilə bağlı qərarların daha dolğun əsaslarla qəbuluna xidmət edir. Elbrus İsayevin tələbələrlə birbaşa ünsiyyətə önəm verməsi universitet həyatında tələbələrin fikir və ehtiyaclarının nəzərə alınmasına şərait yaradır. Ali təhsilin nəticələri auditoriyada qazanılan biliklərlə yanaşı, tələbələrin müstəqil düşünmək, elmi araşdırmalara qoşulmaq və qazandıqları bilikləri praktik fəaliyyətdə tətbiq etmək bacarıqlarında da görünür. Gənc tədqiqatçılara dəstək və məzunların peşəkar fəaliyyətə hazırlanması universitetin təhsil və elmi mühitinin mühüm tərəflərindəndir.

*Ardı 12-ci səhifədə*

2025-ci ildə Karyera Sərgisində 640 vakant iş yerinin təqdim olunması və tədbir zamanı 132 nəfərin işlə təmin edilməsi NDU-nun məzunların məşğulluğu istiqamətində fəaliyyətinin konkret göstəriciləridir. Dövlət və özəl qurumlarla əməkdaşlıq, işəgötürənlərlə əlaqələr tələbələrin əmək bazarının tələbləri ilə tanış olmasına və peşəkar fəaliyyətə hazırlanmasına şərait yaradır. Ali təhsilin nəticəsi diplomla bitmir; əsas məsələlərdən biri məzunun universitetdə qazandığı bilik və bacarıqları iş həyatında tətbiq edə bilməsidir.

Rəqəmsallaşma da universitetin inkişafında diqqət tələb edən istiqamətlərdəndir. NDU-da Eduroam xidmətinin tətbiqinə başlanılması, beynəlxalq akademik şəbəkələrlə əlaqələrin qurulması və elektron resurslardan istifadənin genişləndirilməsi bu sahədə görülən işlər sırasındadır.

Rəqəmsal imkanların tədrisdə, elmi-tədqiqatlarda, kitabxana xidmətlərində və idarəetmədə əlaqəli şəkildə tətbiqi universitetin gündəlik fəaliyyətini daha səmərəli təşkil etməyə və beynəlxalq akademik mühitlə inteqrasiyasını gücləndirməyə xidmət edir.

Naxçıvan Dövlət Universitetində elmi tədqiqatların, beynəlxalq əməkdaşlığın, innovasiyanın və rəqəmsallaşmanın inkişafı qarşıdakı mərhələnin əsas istiqamətləri sırasındadır. 2026-cı ildə Elbrus İsayevin Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının fəxri professoru seçilməsi və "Altın Yıldız" medalı ilə təltif olunması da onun fəaliyyətinə həmin qurum tərəfindən verilən qiymətin ifadəsidir.

NDU-nun altmış illik yubileyinə yaxınlaşdığı bir vaxtda bu istiqamətlər universitetin gələcək inkişafı haqqında daha dolğun təsəvvür yaradır.

Altmış illik yubiley universitetin keçdiyi yola nəzər salmaq, əldə olunan nəticələri dəyərləndirmək və gələcək hədəfləri müəyyənləşdirmək üçün münasib məqamdır. Qarşıdakı mərhələdə əsas vəzifələrdən biri illər ərzində qazanılmış təcrübəni yeni tələblərlə uzlaşdırmaq, universitetin elmi və pedaqoji potensialını gücləndirmək, təhsilin və tədqiqatların keyfiyyətini yüksəltməkdir. Elbrus İsayevin rəhbərliyi ilə Naxçıvan Dövlət Universitetində elmi-tədqiqatların inkişafına, tələbələrin elmi və innovativ təşəbbüslərinə, beynəlxalq əməkdaşlığa, rəqəmsal imkanların genişləndirilməsinə və əmək bazarı ilə əlaqələrin möhkəmləndirilməsinə xüsusi diqqət yetirilib. Əsas məsələ isə onların bir-biri ilə əlaqəli şəkildə inkişaf etməsi, elmi axtarışların tədrisə, tələbə təşəbbüslərinin praktik nəticələrə, beynəlxalq əməkdaşlığın isə yeni bilik və təcrübənin qazanılmasına töhfə verməsidir.

Universitetin inkişafı ayrı-ayrı insanların əməyindən, axtarışlarından və qazandıqları uğurlardan yaranır. Müəllimin elmi məqaləsi, laboratoriyada aparılan araşdırma, beynəlxalq layihədə iştirak, tələbənin startap ideyası və ya müsabiqədə qazandığı uğur ilk baxışda fərqli fəaliyyət sahələrinə aid görünür. Əslində isə bunların hər biri universitetin elmi və akademik həyatına öz töhfəsini verir. Bir tələbənin uğuru başqasını cəsarətləndirir, müəllimin elmi nəticəsi gənclərdə araşdırmaya maraq oyadır, uğurlu bir layihə isə yeni ideyaların yaranmasına təkan verir. Tələbə universitetə yalnız diplom alacağı yer kimi deyil, dünyagörüşünün, peşəsinin, xarakterinin və gələcəyinin formalaşdığı bir mühit kimi yanaşırsa, müəllim özünü təkcə dərs deyən deyil, həm də tədqiqatçı və yol göstərən insan kimi görürsə, universitet öz missiyasını həqiqətən həyata keçirir. Universitetin əsl həyatı da insanın burada yalnız bilik qazanmadığını, həm də öz gələcəyini qurduğunu hiss etdiyi yerdə başlayır.

Fikrimizcə, universitetin şöhrəti həm rektorun adı ilə, həm də tələbələrinin və müəllimlərinin əldə etdiyi nəticələrlə böyüyür. Həmin nəticələrin arxasında isə çox vaxt görünməyən bir zəhmət dayanır: doğru insanları bir araya gətirmək, yeni layihələri dəstəkləmək, gənc alimə yol açmaq, müəllimin elmi fəaliyyətini stimullaşdırmaq, tələbənin sosial ehtiyaclarını nəzərə almaq və insanlara öz potensiallarını gerçəkləşdirmək üçün imkan vermək. Elbrus müəllimin universitetə rəhbərliyi "imkan yaratmaq prinsipi" kimi görünür. Çünki elmə insanları yalnız çağırışlarla cəlb etmək mümkün deyil. Tələbənin özünü sınaya biləcəyi mühitə, tədqiqat aparmaq istəyən alimin dəstəyə, müəllimin elmi potensialını reallaşdırmaq üçün şəraitə, yeni ideyası olan gəncin isə ilk addımında ona inanacaq birinə ehtiyacı var. Böyük nəticələr çox vaxt geniş imkanlardan deyil, vaxtında yaradılan doğru fürsətlərdən başlayır. Bir tələbənin laboratoriyada ilk araşdırmasını aparması, beynəlxalq layihəyə qoşulması, öz ideyasını layihəyə çevirməsi və ya müəllimin illərlə üzərində düşündüyü tədqiqatı həyata keçirməsi ayrı-ayrı hadisələr təsiri bağışlaya bilər. Əslində isə onların ortaq bir cəhəti var: insanın bacarığına inanmaq və onun özünü göstərməsinə yol açmaq. Naxçıvan Dövlət Universitetində son illərdə elm, təhsil, innovasiya və sosial həyatın paralel inkişafı mənim müşahidəmə görə bu idarəçilik prinsipinin təzahürlərindən biridir. Tələbənin yalnız tədris prosesinin iştirakçısı deyil, elmi, ictimai və innovativ fəaliyyətin fəal üzvü kimi çıxış etməsi, müəllimin tədqiqat və layihələrdə daha geniş iştirak imkanları qazanması, gənclərin ideyalarını sınaqdan keçirməyə həvəsləndirilməsi universitet həyatının məzmununu zənginləşdirir. Universiteti böyüdən yalnız yeni imkanların yaranması deyil, həmin imkanlardan istifadə edərək yeni nəticələr əldə edən insanların yetişməsidir.

Naxçıvan Dövlət Universitetində son illərdə məhz belə bir inkişaf dinamikası formalaşır. Elbrus müəllimin fəaliyyətində diqqəti çəkən cəhətlərdən biri universitetin adının və nüfuzunun Naxçıvanın hüdudlarından kənarda tanıdılması istiqamətində atılan addımların ardıcıllığıdır. Universitetin nüfuzu bir gündə yaranmır. O, illər ərzində elmi nailiyyətlər, beynəlxalq əlaqələr, müasir təhsil təşəbbüsləri, innovativ layihələr, tələbə uğurları və akademik əməkdaşlıqlar sayəsində möhkəmlənir. 2026-cı ilin yayında 221 tələbə və həkim-rezidentin Türkiyənin İstanbul-Cərrahpaşa, Ankara, Qazi, Doqquz Eylül, Akdəniz və Qaradəniz Texniki universitetlərində yay təcrübəsi keçməsi, eləcə də 21 professor-müəllim heyəti üzvünün həmin ali məktəblərdə ixtisasartırma proqramlarında iştirakının nəzərdə tutulması bu əməkdaşlığın konkret istiqamətlərini göstərir. Universitetin beynəlxalq əlaqələrinin genişlənməsi, ikili diplom imkanlarının yaradılması, xarici mütəxəssislərin tədrisə cəlb olunması, tələbə və müəllim mobilliyinin inkişafı bu istiqamətdə atılan addımlardandır. Elbrus müəllimin fəaliyyətində diqqətəlayiq məqamlardan biri də universitetin qazandığı tarixi nüfuzu qorumaqla yanaşı, onu yeni elmi və akademik nəticələrlə zənginləşdirmək istəyidir. Universitetin zəngin tarixi onun ən dəyərli sərvətlərindəndir. Ancaq bu tarix yalnız keçmiş nailiyyətlərlə yaşamır; hər yeni nəsil öz əməyi, ideyaları və uğurları ilə ona yeni səhifələr əlavə edir.

Universitetin gücü yalnız əldə etdiyi nəticələrlə deyil, bu nəticələrin yeni axtarışlara yol açması ilə də dəyərləndirilir. Burada qazanılan təcrübə və formalaşan elmi ənənələr bir nəslin nailiyyətlərini növbəti nəslə ötürür. Naxçıvan Dövlət Universitetinin altmış illik inkişaf yoluna nəzər salarkən ayrı-ayrı insanların əməyinin zamanla ümumi bir akademik dəyərə çevrilməsi xüsusilə diqqət çəkir. Bu gün əldə olunan uğurlar universitetin keçmiş təcrübəsini davam etdirməklə yanaşı, onun gələcəyinin formalaşmasında da iştirak edir. Universitetin altmış illik inkişaf tarixində ən mühüm dəyişikliklərindən biri, bəlkə də, onun miqyasından daha çox, qarşısında duran məzmunun genişlənməsidir. Əvvəllər əsas vəzifə Naxçıvanın ali təhsilli kadrlara olan tələbatını ödəmək idisə, müasir dövrdə universitetin missiyası daha geniş məzmun kəsb edir. İndi ali təhsil yalnız peşəkar mütəxəssis hazırlığı ilə məhdudlaşmır; müstəqil düşünən, tədqiqat aparan, innovativ ideyalar irəli sürən və onları praktik nəticələrə çevirə bilən mütəxəssislərin yetişdirilməsini də əhatə edir.

Naxçıvan Dövlət Universitetinin altmış illik yubileyi haqqında düşünərkən məqsəd yalnız keçmişə layiq bir yubiley mərasimi keçirməklə məhdudlaşmır. Əsas məsələ bu illər ərzində toplanmış təcrübəni gələcək onilliklərin inkişafına yönəltmək, universitetin qarşıdakı mərhələlər üçün elmi və intellektual hədəflərini müəyyənləşdirməkdir. Bu gün həmin inkişaf xəttinin formalaşmasında Elbrus İsayevin rəhbərliyi ilə həyata keçirilən təşəbbüslər və seçilən prioritetlər xüsusi əhəmiyyət daşıyır. Çünki universitet rəhbərinin tarixdəki mövqeyi təkcə rəhbərlik etdiyi illərin sayı ilə deyil, həmin dövrdə ali təhsil müəssisəsinin elmi potensialına, idarəçilik mədəniyyətinə və gələcək inkişaf perspektivlərinə verdiyi töhfə ilə müəyyənləşir.

NDU-nun qarşısında indi məhz belə bir mərhələ dayanır: keçmişin yaratdığı nüfuzu qorumaqla kifayətlənməyən, həmin nüfuzu yeni elmi nəticələrə, yeni nəsil alimlərə və yeni akademik imkanlara çevirən bir universitet olmaq. Altmış ilin astanasında ən böyük yubiley nəticəsi də bəlkə budur — keçmişi ilə fəxr edən, gələcəyini keçmişin hesabına deyil, bu gün gördüyü işlərlə quran universitet.

Naxçıvan Dövlət Universitetinin altmış illik inkişaf yolu bölgədə ali təhsilin formalaşması və genişlənməsi tarixidir. 2027-ci ildə qeyd olunacaq yubiley bu yolun nəticələrini dəyərləndirməklə yanaşı, qarşıdakı illər üçün prioritetləri də müəyyənləşdirmək imkanı yaradır. Universitetin gələcək uğurları elmi-tədqiqatların keyfiyyətinin yüksəldilməsi, təhsilin müasir tələblərə uyğunlaşdırılması, gənc alimlərin dəstəklənməsi və beynəlxalq əməkdaşlığın konkret nəticələrlə möhkəmləndirilməsi ilə sıx bağlıdır. Altmış ilin astanasında əsas məsələ qazanılmış təcrübəni qorumaqla kifayətlənməmək, onu yeni elmi və təhsil hədəflərinə yönəltməkdir. Universitetin gələcək tarixini də yubiley tədbirlərindən daha çox, bu hədəflərin həyata keçirilməsi və cəmiyyətə verdiyi töhfələr müəyyənləşdirəcək.

***Mehriban Əsədullasoy***
***"Azərbaycan dilçiliyi" kafedrasının dosenti,***
***filologiya elmləri doktoru***

# Saat fırlandıqca sual yaradır...



Beşcə gün artıqdan yaşayaq deyə,
Min qoyun fırlatdıq dünya başına.
Allah da görsəydi, peşman olardı,
Qıyardı İbrahimin gözdə yaşına...

Guya yaradıblar, saatdır, nədir,
Yaradıb atıblar insanın üstə.
Üç barmaq çevrilir on iki yurda,
Sülhü sülhə qatır, qanı qan üstə...

Nə olar, fırlanma, bir kiri dayan,
Birazca aman ver, qanlar soyusun.
Səhərlər səs-küydən boğulur səsin,
Kaş gecəyarısı da dilin lal olsun...

Deyirlər, filankəs dünyadan gedib...
Ölüm saatıda tuturlar hələ.
Gah tez qaçırsan olduğun vaxtdan,
Gah da ləngiyirsən, salırsan ələ?

Bir qoca, ağbirçək oturub baxır,
Ümidlə gözlərini zilləyib çölə.
Qocalar evindən asılmış saat
Onun gözlərində ümiddir hələ.

Sən demə, əqrəbin zəhərli imiş,
Səni biz yaratdıq, biz günahkarıq.
Kimisi zəhərdən dərman eylədi,
Biz isə bu saat dərmandan xarıq...

Kimisi bir evdə şənlənir, gülür,
Kimisi dərdindən ev qura bilmir.
Kimisi qolunda olan saatı
Evdəki saata uydura bilmir...

Dahilər görmüşəm, ölüb gedibdir,
Saatı həmin çağ susqunluq duyub.
Kiminə bir gilə yaş tökülməyib,
Kimisi arxada bir cahan qoyub...

Saat on ikini vurdu, yeni gün.
Axı mən hələ də eyni gündəyəm.
Daxildən təmizəm, zahirim kirli,
Küt düşmüş təndirə küllü kündəyəm...

Vaxt olur, atamız qurban bir qıza,
Vaxt olur, anaya salam da çoxdur.
Qalxıb iki əllə görüşənlərin
Əlinin görürsən heç solu yoxdur...

Sevgilər dağlardan şəhərə köçdü,
Kimisi şəhərdə dağlara taydır.
Hər qıza ölərəm deyən dillərə
Deyəsən, dirilmək Allahdan paydır.

Oturub izləyir bu qədər millət,
Kimisi çabada, çırpınışdadır.
Çırpınan saatın yalvarışları
Bu saat üzdəki qırışlardadır...

Mən bunu yazdıqca yüz dövrə vurdun,
Yüz taqqıltı saldın, yüz dövrə vurdun.
Qaldırdın Təhməzi öz dövranından,
Hər misra başında yüz dövrə vurdun...

***Rafiq TƏHMƏZ***

# Əcəmi Naxçıvani yaradıcılığı yeni elmi-tədqiqatlarda

Tarixşünaslığımızda xüsusi yeri olan orta əsr mənbələrinin tədqiqi sahəsində yazılan elmi-tədqiqat əsərləri Naxçıvanın qədim və orta əsr tarixini öyrənmək üçün mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Naxçıvan diyarının araşdırılması zamanı ortaya çıxarılan faktlar tariximizin yeni məlumatlarla zənginləşməsinə xidmət edir. AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Hacıfəxrəddin Səfərlinin Naxçıvanın orta əsrlər tarixinin öyrənilməsinə həsr etdiyi, xüsusilə bu ərazidə günümüzədək qorunub saxlanılan epiqrafik abidələr və kitabələr haqqında tədqiqatları bölgənin orta əsrlər dövrü tarixi və mədəniyyətinin araşdırılması baxımından böyük əhəmiyyət daşıyır. Görkəmli alim hər il demək olar ki, yeni elmi faktlara əsaslanan əsərləri ilə oxucu auditoriyasının diqqətini özünə cəlb edir. Araşdırılması xüsusi bacarıq, təmkin, səbr, yüksək peşəkarlıq və elmi biliklər tələb edən epiqrafik mənbələrin tədqiqi ilə məşğul olan professor Hacıfəxrəddin Səfərli Azərbaycanın orta əsr tarixşünaslığında öz dəsti-xəttini yaratmışdır.

Dəyərli alim, müəllimlərin müəllimi bu dəfə də iki monoqrafiya ilə tariximizin diqqət çəkən məqamlarını özündə bir sirr kimi saxlayan faktlara yenidən müraciət etmişdir. Professor Hacıfəxrəddin Səfərli özünün yenidən işlənmiş, əlavələr edilmiş "Naxçıvan şəhərinin epiqrafik abidələri" və eyni zamanda "Əcəmi Əbubəkr oğlu Naxçıvani: şəxsiyyəti və irsi" əsərləri ilə həm orta əsr türk müsəlman memarlığı, həm də dövrün məşhur sənətkarları barədə faktları elmi ictimaiyyətin diqqətinə çatdırmışdır.

Müəllifin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən xüsusi Sərəncamla elan olunan "Şəhərsalma və memarlıq ili"nə həsr etdiyi "Naxçıvan şəhərinin epiqrafik abidələri" monoqrafiyası demək olar ki, Naxçıvan şəhərinin qədim və orta əsrlər tarixini öyrənmək üçün sanballı bir elmi-tədqiqat əsəridir. Monoqrafiyada Naxçıvan şəhərinin salınması, mənbələrdə şəhərin adı ilə bağlı verilən məlumatların elmi əsaslarla təhlili, ümumilikdə şəhər mədəniyyəti ilə bağlı məsələlər geniş şərh edilmişdir. Həmçinin əsərdə Naxçıvan diyarının qədim dövrlərdən XX yüzilliyin əvvəllərinə qədərki dövrü haqqında məlumatlar yer almış, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi və qeyd olunması ilə bağlı faktlar və müqəddəs dəyərlərin tarixinə nəzər salınmışdır.

Görkəmli alim Hacıfəxrəddin Səfərli Naxçıvan şəhərində yerləşən, bir növ Naxçıvan şəhərinin vizual pasportuna çevrilən Əcəmi yadigarları olan Yusif Küseyr oğlu türbəsinin, Möminə xatun türbəsinin, bizə qədər gəlib çatmayan Qoşa minarəli baştağın, İmamzadə kompleksinin kitabələrini əsərində təqdim etmişdir. Müəllif həmçinin Naxçıvan şəhərində olan muzeylərdə nümayiş etdirilən epiqrafik abidələr haqqında öz monoqrafiyasında bəhs etmişdir.

Azərbaycan memarlığının ən görkəmli nümayəndələrindən olan, dünya memarları içərisində öz zəngin irsi ilə seçilən Memar Əcəmi Əbubəkr oğlu Naxçıvani təkcə Azərbaycan memarlığının deyil, ümumtürk mədəniyyətinin tanınmış simalarından olmuşdur. Orta əsr Səlcuqlu abidələrinin şah əsərləri olan Came məscidi, Möminə xatun, Yusif Küseyr oğlu türbələrinin, Qoşa minarəli baştağın memarı olan Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaradıcılığı daim dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. Ümummilli Lider Heydər Əliyevin milli məsələlərdəki mövqeyi sovetlər dövründə orta əsr Azərbaycan abidələrinin qorunmasında öz təsirini daim göstərmişdir. Belə ki, Heydər Əliyevin Azərbaycanda rəhbərliyə başladıqdan sonra milli məsələlərdəki həssas davranışı tarixi abidələrimizin dövlətin himayəsi altına alınması ilə nəticələnmiş, hər bir abidə ilə bağlı ciddi addımlar atılmışdır. Bu istiqamətdə aparılan işlərdən biri də 1976-cı ildə Əcəmi Naxçıvaninin 850 illik yubileyinin keçirilməsi ilə bağlı verilən qərar olmuşdur. Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonrakı illərdə də Ulu Öndər milli məsələlərdə həssaslıq göstərmiş, tariximizə olan ictimai və dövlət qayğısının daimi olmasını təşviq etmişdir. Ümummilli Lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də tarixi irsimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm addımlar atmaqla lazımi işlər görməkdədir. Hörmətli Prezident 2025-2026-cı illərdə görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin irsi və şəxsiyyəti ilə əlaqədar dörd Sərəncam imzalamışdır.

Dövlət başçısının Möminə xatun türbəsinin bərpası və konservasiyası, bərpa ilə əlaqədar vəsaitin ayrılması, həmçinin Memar Əcəminin Naxçıvan şəhərində abidəsinin ucaldılması ilə bağlı Sərəncamları Əcəmi Naxçıvani irsinə və şəxsiyyətinə göstərilən yüksək dövlət qayğısının parlaq göstəricisidir.

Dövlət başçısının diqqət və qayğısı ilə əlaqədar imzalanmış mühüm sənədlərlə bağlı məlumatlar Professor Hacıfəxrəddin Səfərlinin haqqında bəhs edilən "Əcəmi Əbubəkr oğlu Naxçıvani: şəxsiyyəti və irsi" əsərində təqdim edilmişdir. Monoqrafiyanın "Əcəmi Naxçıvani şəxsiyyətinə və irsinə dövlət qayğısı" adlı bölməsində görkəmli memarın Naxçıvan şəhərində ucaldılan abidələrinə sovet hakimiyyəti illərində olan ögey münasibət, 1969-cu ildə hakimiyyətə gəlmiş Ümummilli Lider Heydər Əliyevin tarixi irsə olan diqqət və qayğısı, bu çərçivədə Əcəmi yadigarlarının dövlətin himayəsinə alınması ilə bağlı faktlar qeyd edilmişdir. Memarın xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə görkəmli rəssamlar və heykəltaraşlar tərəfindən hazırlanmış sənət əsərləri və onların Əcəmi memarlığı ansambılının bir hissəsinə çevrilməsi ilə bağlı faktlar da bəhs edilən bölmədə işıqlandırılmışdır. Profesor Hacıfəxrəddin Səfərli Memar Əcəminin şah əsəri olan Möminə xatun türbəsinin bərpası və konservasiyası üçün ayrılmış yüksək məbləğdə vəsaitləri Əcəmi Naxçıvani yaradıcılığına yüksək dövlət qayğısının təzahürü kimi dəyərləndirmişdir.

Bu il avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan şəhərində öz Sərəncamı əsasında ucaldılan Əcəmi Naxçıvaninin heykəlini açması da Əcəmi Naxçıvani şəxsiyyəti və irsinə onun diqqət və qayğısının ən yüksək göstəricisidir.

Görkəmli alim öz monoqrafiyasının böyük sənətkarın həyatı və yaradıcılığını özündə əks etdirən bölməsində memarın şəxsiyyətinə və ustalığına dair maraqlı məlumatlar verməklə yanaşı, tarixi abidələrdəki kitabələr və onların informativ xarakterini də açmışdır. Hər hansı tarixi proses şərh edilərkən, təbii ki, dövrün maddi mədəniyyət nümunələrinin, məqbərələrin, müəyyən təyinatlı tikililərin, məscid və mədrəsələrin, qəbirüstü məzar daşlarının kitabələrinin məlumatlarından geniş istifadə edilir. Elə bu baxımdan Memar Əcəmi yaradıcılığında nəfisliyi, yazılma texnikası, məzmunu və üslubu ilə seçilən kitabələrin əhəmiyyətini nəzərə almaqla tədqiqatçı alim monoqrafiyanın mühüm bir hissəsində bu istiqaməti əsas götürmüş, epiqrafik yazıların təhlilini sadə, anlaşıqlı dildə oxucunun diqqətinə çatdırmışdır.

Hər bir abidə haqqında verilən konkret məlumatlar, faktoloji baxımdan edilən təhlillər monoqrafiyada daha çox diqqət çəkir. Memar Əcəminin inşa texnikası, Şərq memarlığına xas olan ornamentlərdən istifadə, sonrakı yüzilliklərdə Azərbaycanın digər bölgələrində, Anadoluda, Şərqin mədəniyyət mərkəzləri olan İstanbulda, İsfahanda, Marağada, Orta Asiyada və digər yerlərdə ucaldılan memarlıq abidələrində böyük sənətkarın yaradıcılığının müşahidə edilməsi haqqındakı bilgilər monoqrafiyada əhatəli qeyd edilmişdir.



Müəllif monoqrafiyasının bir bölümünü də XII-XIV əsrlərdə yaşayıb-yaratmış Naxçıvan memarlıq məktəbinin yetirməsi olan digər görkəmli memarlara ayırmışdır. 1322-ci ildə inşa edilmiş Bərdə türbəsinin memarı Əhməd Əyyub oğlu əl Hafiz Naxçıvani, Əlincəçayın sol sahilində yerləşən "Şeyx Xorasan" türbəsinin memarı Xacə Cəmaləddin, XII əsrdə yaşamış məşhur memarlardan olan Şeyx ibn Cühənnah, Əmirəddin Məsud Naxçıvani, XIV əsrin tanınmış memarlarından olan Məhəmməd bəy Hacı oğlu haqqındakı məlumatları professor Hacıfəxrəddin Səfərlinin demək olar ki, orta əsr mənbələrində haqqında məlumatlara rast gəlinməyən görkəmli memarların tanıdılması istiqamətində apardığı tədqiqatın bir hissəsini təşkil edir.

AMEA-nın müxbir üzvü, tanınmış epiqraf alim, professor Hacıfəxrəddin Səfərli uzun illərdir ki Naxçıvan diyarının tarixi abidələrində olan kitabələrin araşdırılması ilə məşğul olur. Elmi dövriyyəyə daxil edilmiş, haqqında qısaca bəhs etdiyimiz monoqrafiyalar da hörmətli professor Hacıfəxrəddin Səfərlinin əməyinin bir parçasıdır. Hər iki kitabın ərsəyə gəlməsində böyük zəhməti olan dəyərli alimimizi təbrik edir, ona elmi yaradıcılığında yeni-yeni nailiyyətlər arzu edirik.

*Qadir Əkbərov*
*Tarix-filologiya fakültəsinin dekan müavini, "Azərbaycan tarixi" kafedrasının dosenti*

# Solan çiçəklər

Həyata qədəm qoyduğumuz andan nələrsə etməyə, çalışmağa və öyrənməyə başlayırıq. Öyrəndikcə, çalışdıqca nə qədər dəyişdiyimizi və dəyişə biləcəyimizi görürük. Hər birimiz bu yolda fərqli çətinliklər, düşüncələr ilə irəliləyirik. İrəliləyərək həyat pillələrini keçirik. Son pilləmizə gəlib çatanda arxamıza baxıb nələrisə bacardığımızı və bacara bilmədiyimizi görürük. Artıq peşmançılığın, kədərin bu pillədə keçməz olduğunu, mənasız olduğunu görürük. Kimisi bacara bildikləri üçün sevinərkən, kimisi də etmək istədiklərini, bacara bilmədiyi xəyallarını, əməllərini göz önünə gətirir.

Mən həyatı böyük çiçək bağçasına bənzədirəm. Bu bağçada fərqli-fərqli çiçəklər açır. Bu çiçəklər həyata başlanğıc qoyan insanlardır. Gülləri ilə bağçanı bəzəyir, hər biri xoş ətirlər saçır. Günügündən bağçaya rəng qatırlar. Lakin hər bir şeyin sonu olduğu kimi çiçəklərin də bir sonu var. Həyatın sərt külәkləri bu zərif çiçəkləri incidir, taqətdən salır.

Güclü çiçəklər həyatda mübarizələrini aparırlar. Əzmli, mübariz olanlar özlərinə bağçada müəyyən bir məqam tuta bilirlər. İradəsiz olanlar isə küləyin sərt baxışlarına məğlub olurlar. Çiçəklərin də əldə etmək istədiyi xəyalları, arzuları olur. Bəzisinin sevdiyi biri, bəzisinin isə həyata keçirmək istədiyi arzusu olur.

Həyat qarşımıza çox çətinliklər çıxara bilər. Bu yolda bəzən büdrəyər, bəzən isə ayağa qalxmaq üçün özümüzdə güc axtararıq. Qarşılaşdığımız hər bir maneə bizi ya daha güclü edir, ya da ruhumuzda dərin izlər buraxır. Lakin heç bir çətinlik əbədi deyil. Ən uzun gecənin belə bir səhəri olduğu kimi, ən ağır günlərin də bir sonu vardır.

Bağçadakı çiçəklər də müxtəlif fəsillər yaşayır. Yazda açan güllər payızın gəlişi ilə solur, amma onların toxumları torpaqda qalaraq yeni həyatın başlanğıcına çevrilir. İnsan ömrü də buna bənzəyir. Hər bir insan yaşadığı xatirələr, gördüyü işlər və qoyduğu izlərlə həyat bağçasında öz yerini tutur. Kiminin ömrü uzun, kimininki qısa olsa da, əsas olan nə qədər yaşamaq deyil, yaşadığı müddətdə nə qədər fayda verməkdir.

Solan çiçəklərə baxanda onların gözəlliyinin sona çatdığını düşünürük. Halbuki onlar sadəcə təbiətin qanununa tabe olurlar. İnsan da həyatının müəyyən dövründə gücünü itirə, arzularının bir qismini həyata keçirə bilməyə bilər. Amma bu, onun dəyərini azaltmır. Əksinə, yaşadığı təcrübələr onu daha müdrik və həyata daha fərqli baxan bir insana çevirir.

Hər bir solmuş çiçək vaxtilə bağçaya rəng qatan, ətrini ətrafa yayan bir gözəllik olub. İnsan da arxasında qoyduğu xeyirxah əməllər, sevgisi və xoş xatirələri ilə yadda qalır. Günlərin birində hər birimiz bu bağçadan ayrılacağıq. Lakin necə yaşadığımız, insanlara nə bəxş etdiyimiz və hansı izləri qoyduğumuz heç vaxt unudulmayacaq.

Unutmayaq ki, həyat bağçasında heç bir çiçək əbədi açıq qalmır. Solmaq həyatın sonu deyil, təbiətin ayrılmaz bir hissəsidir. Əsas olan çiçəklədiyimiz müddətdə ətrafımıza gözəllik, sevgi və ümid bəxş etməkdir. Çünki zaman keçəcək, ləçəklər tökülәcək, amma gözəl əməllərin ətri insanların qəlbində həmişə yaşayacaq.

Həyat bizə öyrədir ki, insan da bir çiçək kimidir: qayğı ilə böyüyür, sevgi ilə çiçəklənir, zamanla solur. Lakin onun əsl dəyəri ömrünün uzunluğu ilə deyil, toxunduğu qəlblərdə buraxdığı gözəl izlərlə ölçülür.

*Səma Nəcəfli*
*Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi*

# İQLİM SİLAHI: HAARP GERÇƏKLİYİ

Müasir dünyada elmi nailiyyətlərlə qəribə fərziyyələrin kəsişdiyi nöqtələr az deyil. Ancaq bunların heç biri **HAARP** (High-frequency Active Auroral Research Program – Yüksəktezlikli Aktiv Avroral Tədqiqat Proqramı) qədər ziddiyyətli və sirli görünməyib. Alyaskanın soyuq və kimsəsiz meşələrində göyə yüksələn yüzlərlə nəhəng antena illərdir ki, bəşəriyyətə həm maraqlı, həm də qorxulu gəlir.

Bəs HAARP həqiqətən atmosferi öyrənən sadə bir laboratoriyadır, yoxsa planetin taleyini dəyişdirə biləcək gizli bir "iqlim silahı"?

**Göyləri öyrənən layihə – HAARP nədir?**

HAARP layihəsinin təməli 1990-cı illərin əvvəllərində ABŞ Hərbi Hava Qüvvələri, dəniz donanması və Alyaska Universiteti tərəfindən qoyulub. Məqsəd rəsmi şəkildə belə bəyan edilib: **İonosferi – Yerin atmosferinin ən üst, yüklü zərrəciklərlə zəngin qatını öyrənmək.**

İonosfer radio dalğalarının ötürülməsində və peyk rabitəsində həyati rol oynayır. HAARP stansiyasındakı 180 nəhəng antena vasitəsilə ionosferə yüksəktezlikli radio dalğaları göndərilir. Bu dalğalar atmosferin kiçik bir sahəsini müvəqqəti və lokal olaraq qızdırır. Alimlər isə bu prosesin radiosiqnallara, peyk əlaqələrinə və naviqasiya sistemlərinə təsirini müşahidə edirlər.

Yəni sadə dildə desək, HAARP atmosferə "süni işıq" salaraq onun sirlərini açmağa çalışan nəhəng bir elmi laboratoriyadır.

**Zəlzələlər və iqlim nəzarəti**

HAARP haqqında gəzən şayiələr onun elmi missiyasını çoxdan kölgədə qoyub. İnternet əsrində hər böyük təbii fəlakətdən sonra gözlər Alyaskaya dikilir.

Fərziyyələrə görə, HAARP atmosferin tərkibini dəyişərək istənilən ölkədə quraqlıq, tufan və ya şiddətli yağışlar yarada bilir. Bir çoxları iddia edir ki, göndərilən yüksək enerjili dalğalar Yerin tektonik laylarına təsir edərək süni zəlzələlərə təkan verir. Ən fantastik iddialardan biri də bu dalğaların insan beyninin tezlikləri ilə üst-üstə düşərək kütləvi psixoloji təsir göstərə bilməsidir.

**İllüziya və reallıq**

Fiziklər və meteoroloqlar bu iddialara qarşı yekdil bir mövqe nümayiş etdirirlər: **"Bu, fiziki olaraq qeyri-mümkündür".** HAARP-ın yaydığı radio-tezlik enerjisi Böyük Britaniya və ya ABŞ-nin bir neçə kiçik radiostansiyasının gücü qədərdir. Günəşdən Yerin ionosferinə daxil olan enerji isə HAARP-ın gücündən milyon dəfə çoxdur. Bu qədər kiçik enerji ilə qlobal hava şəraitini dəyişmək və ya vulkan, zəlzələ yaratmaq dənizə bir damla isti su töküb okeanı qızdırmağa bənzəyir.

Hava şəraiti – yağış, külək, fırtına atmosferin ən alt qatı olan **troposferdə** baş verir. HAARP isə ondan yüzlərlə kilometr yüksəkdə yerləşən **ionosferlə** işləyir.

*Alyaska Geofizika İnstitutunun tədqiqatçıları mətbuata verdikləri açıqlamada deyirlər: "İonosferə göndərilən dalğalar Günəş radiasiyası yanında sadəcə okeana atılan xırda bir daş kimidir. O, heç vaxt zəlzələ və ya qasırğa yarada bilməz".*

**Texnologiyaya qarşı şübhə**

HAARP ətrafındakı müəmma layihənin uzun illər hərbi büdcədən maliyyələşməsi və mərkəzin qapalı



qalması ilə daha da dərinləşib. Lakin 2015-ci ildən etibarən mərkəz tamamilə **Alyaska Fairbanks Universitetinin** nəzarətinə verilib. Artıq bura vaxtaşırı açıq qapı günləri keçirən, qapılarını mülki alimlərə və jurnalistlərə açan bir tədqiqat ocağıdır.

Yerin və kainatın sirlərini öyrənmək bəşəriyyətin ən böyük arzusudur. Lakin insan övladı anlamadığı, gözlə görmədiyi və idarə edə bilmədiyi hər böyük texnologiyadan qorxmağa meyillidir. HAARP da bu qorxuların, miflərin və elmin qovuşduğu ən maraqlı nümunələrdən biri kimi tarixdəki yerini qoruyur.

**HAARP analoqu olan mərkəzlər**

HAARP hər nə qədər kütləvi informasiya vasitələrində və qəsd nəzəriyyələrində tək və bənzərsiz kimi təqdim olunsa da, elmi dairələrdə bu tip qurğular **"İonosfer qızdırıcıları"** adlanır. Dünyanın müxtəlif ölkələrində atmosferin yuxarı qatlarını və plazmanı öyrənmək üçün HAARP-ın analoqu olan bir sıra elmi-tədqiqat mərkəzləri fəaliyyət göstərir.

Ən tanınmış alternativlər bunlardır:

- **Sura İonosfer Tədqiqat Mərkəzi (Rusiya):** Rusiyanın Nijni Novqorod şəhəri yaxınlığındakı Vasilsursk kəndində yerləşən bu stansiya 1981-ci ildə Sovet İttifaqı dövründə yaradılıb. Funksiyasına və iş prinsipinə görə HAARP-ın demək olar ki, əkiz qardaşıdır. Sura stansiyası da yüksəktezlikli radiodalğalar vasitəsilə ionosferi qızdıraraq orada baş verən fiziki prosesləri, radiodalğaların yayılma xüsusiyyətlərini tədqiq edir.
- **EISCAT (Avropa İnokerent Səpələnmə Elmi Assosiasiyası) – Tromsø Stansiyası (Norveç):** Şimal qütbünə yaxın ərazidə – Norveçin Tromsø şəhərində yerləşən bu kompleks Avropanın bir neçə ölkəsinin (Norveç, İsveç, Finlandiya, Böyük Britaniya, Yaponiya və s.) birgə əməkdaşlığı ilə idarə olunur. Buradakı ionosfer qızdırıcı qurğu şimal qütb parıltılarını (aurora) və ionosfer plazmasını öyrənmək üçün güclü radio ötürücülərdən istifadə edir.
- **SPEAR (Space Plasma Exploration by Active Radar) – Şpitsbergen (Norveç):** Norveçə məxsus Şpitsbergen arxipelaqında yerləşən daha kiçik miqyaslı bir ionosfer tədqiqat stansiyasıdır. O, əsasən qütb bölgələrindəki ionosferin dinamikasını və kosmik hava hadisələrini tədqiq etmək üçün quraşdırılıb.
- **Arecibo Rəsədxanası (Puerto-Riko - Keçmişdə fəaliyyət göstərib):** Dünyanın ən böyük radio-teleskoplarından biri kimi tanınan Arecibo öz dövründə güclü ionosfer qızdırma qurğusuna da sahib idi. Lakin bu kompleks 2020-ci ildə baş verən texniki qəzalar və dağıntılar səbəbindən rəsmi olaraq bağlanıb.
- **HIPAS Rəsədxanası (ABŞ, Alyaska - Bağlanıb):** HAARP-a coğrafi olaraq yaxın bir ərazidə yerləşən bu özəl və akademik tədqiqat mərkəzi də illər boyu ionosferin tədqiqi ilə məşğul olub, lakin sonradan fəaliyyətini dayandırıb.

Alimlər iddia edir ki, bütün bu mərkəzlərin ortaq cəhəti hərbi silah olmaları deyil, qlobal rabitə sistemlərinə təsir edən ionosfer qatındakı dəyişiklikləri izləmək və kosmik havanı öyrənməkdir. Lakin iddiaların gerçək olub-olmadığını isə gələcək araşdırmalar göstərəcəkdir.

*Surə Seyid*
*Araşdırmaçı jurnalist*

# Gələcəyin texnologiyasını quran məktəbli

Texnologiyanın sürətlə inkişaf etdiyi, süni intellektin həyatımızın müxtəlif sahələrinə nüfuz etdiyi bir dövrdə gələcəyi formalaşdıran yeniliklərə maraq göstərmək üçün yaşın böyük olmasına ehtiyac yoxdur. Bəzən bir uşağın xəyalı gələcəkdə gerçəkləşəcək böyük ideyaların ilk addımına çevrilir. Əsas olan isə marağı suallarla, sualları araşdırma ilə, araşdırmanı yaradıcı düşüncə və zəhmətlə birləşdirməkdir. Naxçıvanda da texnologiyaya olan marağını real layihəyə çevirən, öz ideyalarını kodlar vasitəsilə həyata keçirən məktəblilər var.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Kembric Məktəbinin 8 "B" sinif şagirdi Asif Axundzadə də məhz belə gənclərdəndir. O, hazırladığı "ELVIN" (Electronic Logic Visual Internet Navigator) adlı robotla yüksək proqramlaşdırma bacarığı ilə yanaşı, yeni texnologiyalar kəşf etməyə və gələcəyi formalaşdırmağa olan böyük marağını da əks etdirir.

Asiflə həmsöhbət olarkən aydın olur ki, "ELVIN" onun üçün sadəcə texniki qurğu deyil, bu onda uşaqlıqdan gələn maraqdan, yeni ideyaları sınaqdan keçirmək həvəsindən və gələcəkdə daha mürəkkəb sistemlər qurmaq arzusundan qaynaqlanır.

Asif texnologiyaya və robototexnikaya marağının 5-ci sinifdən başladığını deyir.

"Robotun hərəkət etməsini, səs eşitməsini, danışmasını və suallara cavab verməsini istəyirdim. Bunun üçün ona dinamik, mikrofon və kamera quraşdırmışam. Dinamik vasitəsilə danışır, mikrofonla səsi qəbul edir, kamera ilə isə ətrafı görə bilir. Bu komponentləri proqramlaşdırma vasitəsilə bir-birinə bağlayaraq robotun müxtəlif funksiyalarını işlək vəziyyətə gətirməyə çalışmışam. Mənim məqsədim sadəcə hazır texnologiyalardan istifadə etmək deyil. Onların necə işlədiyini öyrənmək, öz ideyalarımı həyata keçirmək və hazırladığım robotu daha da təkmilləşdirmək istəyirəm. "ELVIN" üzərində işləyərkən əsas diqqətimi onun müxtəlif funksiyalarını vahid sistemdə birləşdirməyə yönəltmişəm. İstəyirəm ki, robot yalnız verilən əmrləri yerinə yetirməsin, həm də ətrafdan aldığı məlumatlara uyğun reaksiya verə bilsin", – deyə Asif bildirir.




Asif robotun imkanlarını daha da genişləndirmək istədiyini bildirir: "Bu robotu hazırlayarkən çalışmışam ki, onun funksiyaları bir-biri ilə əlaqəli şəkildə işləsin. Mənim üçün ən maraqlı tərəf müxtəlif texniki hissələri birləşdirib onların vahid sistem kimi fəaliyyət göstərməsinə nail olmaqdır. Hələ öyrənməli olduğum çox şey var və gələcəkdə robotun imkanlarını daha da artırmaq istəyirəm".

"ELVIN"in insanlarla ünsiyyət imkanlarından danışan Asif qeyd edir ki, robot ingilis dilində danışa bilir, lakin Azərbaycan dilində danışığı anlamaq məsələsində müəyyən çətinliklər mövcuddur: "Azərbaycan dilində dialekt və ləhcə fərqləri çoxdur. Eyni söz müxtəlif bölgələrdə fərqli tələffüz oluna bilir. Bu da robotun deyilənləri düzgün anlamasına təsir göstərir. İstəyirəm ki, gələcəkdə bu problemi də həll edim. Robotun Azərbaycan dilində danışığı daha yaxşı anlaması, verilən suallara uyğun cavablar verməsi üçün onun üzərində işləməyə davam edəcəyəm".

Asif proqramlaşdırma sahəsində biliklərini artırmağın vacibliyini də vurğulayır. Hazırda Python və C# dillərindən istifadə etdiyini deyən məktəbli növbəti mərhələdə C++ dilini də öyrənir: "Proqramlaşdırma daim öyrənməyi və araşdırmağı tələb edir. Bir layihəni hazırlamaqla iş bitmir. Onu inkişaf etdirmək, yeni funksiyalar əlavə etmək və qarşıya çıxan problemləri həll etmək lazımdır. Buna görə də biliklərimi artırmağa çalışıram. C++ dilini də öyrənirəm ki, gələcəkdə daha mürəkkəb layihələr hazırlaya bilim".

Gələcək hədəflərindən danışan Asif mühəndisliyə xüsusi maraq göstərdiyini bildirir. O, Massaçusets Texnologiya İnstitutunda (MIT) mexanika mühəndisliyi üzrə təhsil almağı arzulayır: "Gələcəkdə MIT-də mexanika mühəndisliyi üzrə təhsil almaq istəyirəm. Robototexnika mənə həm proqramlaşdırmanı, həm də mexaniki sistemlərin necə işlədiyini öyrənmək imkanı verir. İndiki layihəmi başlanğıc hesab edirəm. Qarşıda daha böyük layihələr hazırlamaq, robotun imkanlarını genişləndirmək və yeni ideyalarımı həyata keçirmək istəyirəm".

Asifin təhsil aldığı Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Kembric Məktəbində müəllimləri də onun bacarıqlarını və öyrənməyə münasibətini yüksək qiymətləndirirlər. Müəllimlərinin sözlərinə görə, Asif məktəbə yüksək nəticə ilə, birinciliklə qəbul olunan şagirdlərdəndir və təhsil müəssisəsinin ilk şagirdləri arasında yer alır. Onun ingilis dili biliyinin yüksək olması, müəllimləri ilə eyni səviyyədə ünsiyyət qura bilməsi də diqqətçəkən xüsusiyyətlərindəndir.

İngilis dilini yaxşı bilməsi Asifin texnologiya sahəsində inkişafı üçün mühüm üstünlükdür. Proqramlaşdırma, süni intellekt və robototexnika ilə bağlı resursların böyük hissəsinin bu dildə olması ona yeni biliklər əldə etmək və beynəlxalq təhsil imkanlarından yararlanmaq üçün əlavə şərait yaradır.

Asif Axundzadə üçün maraq, zəhmət və öyrənmək həvəsi böyük hədəflərə aparan yolun elə ilk addımıdır. Cəmi iki-üç aya ərsəyə gətirdiyi "ELVIN" robotu onun gələcək mühəndislik yolundakı ilk uğurlu imzasıdır.

*Elnurə CƏFƏROVA*

# Payızın zəhməti, qışın bərəkəti

***Payız kəndə gələndə…***

Torpağın bəxş etdiyi bərəkətin toplandığı, həyət-bacaların canlandığı, evlərdə qış azuqəsinin hazırlandığı payız kənd həyatının ən zəhmətli, eyni zamanda ən doğma çağıdır.

Payızın kəndə gəlişini saralan yarpaqlar, səhər torpağa çökən sərinlik və bağlardan gələn yetişmiş meyvə ətri xəbər verir. Bağlarda son meyvələr dərilir, bostanlar sovuşur. Həyətlərin bir küncündə qurudulmaq üçün sərilən nemətlər, o biri tərəfində isə qış üçün görülən hazırlıqlar gözə dəyir. Payız kənd adamı üçün ilin zəhmətinin bəhrəsini toplamaq, qarşıdakı soyuq günlərə hazırlaşmaq deməkdir.

Kənd yollarında addımlayanda payızın özünəməxsus ritmi hiss olunur. Səhər tezdən bağa gedənlər səbətlərini götürür, bir yanda alma və heyva dərilir, digər tərəfdə qoz yığılır. Talvarlardan asılan üzüm salxımları, günəşin altında qurumağa qoyulan meyvələr kəndin payız mənzərəsini tamamlayır. Hər dolu səbətin arxasında isə alın təri dayanır.

Kənd həyatının öz qanunları var. Payızın qısa günləri insanları vaxtdan səmərəli istifadə etməyə sövq edir. Çünki havalar soyuduqca bağda işləmək çətinləşir, yağışlar yolları ağırlaşdırır. Buna görə də məhsul yetişəndə dərilir, qurudulmalı olan qurudulur, saxlanılmalı olan səliqə ilə yerbəyer edilir.

***Bağın bərəkəti qışın ruzisinə çevrilir.***

Payızın ən gözəl mənzərələrindən biri meyvə yığımının son günləridir. Budaqlarda qalan almalar, heyvalar, narlar və üzüm salxımları yayın son salamını verir. Meyvələrin bir qismi təzə halda istehlak üçün ayrılır, bir qismi qurudulur, digərlərindən isə mürəbbə, kompot və şirə hazırlanır.

Naxçıvanın meyvəçilik ənənələri də bu mənzərəyə xüsusi rəng qatır. Çünki mövsümi meyvələr həm də qış süfrəsinin bərəkətidir. Meyvələri günəş altında qurutmaq, onları qax halına salmaq, üzüm salxımlarını münasib yerlərdən asmaq, alma və heyvanı sərin anbarlarda saxlamaq kimi qədim üsullar bu gün də yaşadılır. Məsələn, Culfa rayonunun Milax kəndində üzümün təsərrüfat damlarında və zirzəmilərdə asılaraq saxlanılması qədim xalq ənənəsidir.



Meyvələrin qurudulması xüsusi zəhmət tələb edir. Yığılan məhsul təmizlənir, doğranır və günəşin altında qurumağa qoyulur. Qurudulmuş ərik, alma və digər meyvələr qışda çay yanında təqdim olunur, bəzən də müxtəlif yeməklərdə istifadə edilir.

Bağda iş bununla bitmir. Qoz ağaclarının altına tökülən məhsul yığılıb təmizlənir, üzümün bir hissəsindən şirə və doşab hazırlanır. Belə üsullar göstərir ki, kənd adamı təkcə məhsul yetişdirməyi deyil, onun bərəkətini uzun müddət qorumağı da yaxşı bilir.

***Həyətlərdə qışın hazırlığı başlayır.***

Meyvə yığımı ilə yanaşı, həyət-bacada tərəvəzlər çeşidlənir, müxtəlif turşular hazırlanır, bankalar yuyulub saxlama yerləri səliqəyə salınır. Pomidor, xiyar, kələm və bibərdən hazırlanan turşular qış süfrəsinin əvəzsiz nemətlərindəndir.

Bu hazırlıqların hər birində illərin təcrübəsi və yaddaşı var. Hansı məhsulun necə saxlanılması, turşunun duz ölçüsü, meyvənin qurudulma vaxtı nənələrin, anaların əlindən, onların yanında işləyə-işləyə öyrənilib. Bu gün də gənclər böyüklərinin köməyilə qış tədarükünün incəliklərini mənimsəyirlər.

Hazırlıq ərzaqla da bitmir. Həyətlər təmizlənir, odun tədarükü görülür, dam örtükləri yoxlanılır, mal-qaranın qış yem ehtiyatı nəzərdən keçirilir. Burada qışa hazırlıq bütöv bir təsərrüfatın qarşıdakı mövsümə uyğunlaşdırılmasıdır.

Evin zirzəmisi, anbarı, rəfləri də bu günlərdə başqa görkəm alır. Rəflərdə mürəbbə və turşu bankaları, künclərdə ərzaq kisələri düzülür. Hər şeyin yerliyerində olması ev sahibinə rahatlıq verir, çünki çəkilən zəhmət qışın sərt günlərində bolluq və rahatlıq deməkdir.

***Əriştə kəsilən, qovurma bişən evdə birlik var.***

Naxçıvan kəndlərində qış hazırlığının ən doğma ənənələrindən biri əriştə kəsimi və qovurma tədarüküdür. Əriştənin kəsimi, ocaqdan qalxan qovurma ətri ruzili kənd evinin, isinən ocağın rəmzidir. Bu işlərdə böyüklərin illərlə qazandığı təcrübə və məharət təbii şəkildə gənclərə ötürülür.

Bu günlərin ən gözəl cəhəti el birliyi və insanların bir araya gəlməsidir. Qonşular, qohumlar bir-birinə köməyə gəlir, iş şirin söhbətlərlə, xatirələri xatırlamaqla görülür. Əriştə və qovurma tədarükü Naxçıvanda adət-ənənəni yaşadan, insanları birbirinə bağlayan məişət mədəniyyətidir. Qışın şaxtalı günlərində süfrəyə gələn hər nemətdə həmin payız günlərinin istisi və birgə çəkilən zəhmətin xatirəsi yaşayır.

***Payızın ən gözəl tərəfi paylaşmaqdır.***

Kənd həyatında bir işin görülməsi çox vaxt tək bir ailənin işi olmaqdan çıxır. Məhsul yığımında, əriştə kəsimində qonşular köməyə gəlir, məhsul bol olanda paylaşılır. Bu münasibətlər illər ərzində formalaşmış el birliyidir.

Uşaqlar da bu axara qoşulurlar. Böyüklərə kömək edərək torpağın necə məhsul verdiyini və ərzağın süfrəyə hansı zəhmətlə gəldiyini öz gözləri ilə görürlər.

Nənələrin danışdığı köhnə əhvalatlar, babaların təsərrüfat məsləhətləri bu günlərin başqa bir dəyəridir. Ənənə insanları öz köklərinə bağlayan yaddaşdır. Payız mənzərəsində təbiətə bağlılıq, qənaət, zəhmətə hörmət və paylaşmaq mədəniyyəti birləşir. Qışda çöldə nə qədər sərt şaxta olsa da, payızda birgə çəkilən zəhmətin doğmalığı kənd evlərinin ocaq istisini qoruyacaq.

***Elnurə Cəfərova***

# SARI GƏLİN

Deyirlər, qılıncla alınan torpağın ömrü atın ayağı çatdığı qədər olur. Amma könüldən vurulan düyün əbədidir…

XV əsrin soyuq bir payız axşamı Təbriz sarayı böyük bir tarixi qərarın və böyük bir sevdanın ərəfəsində idi. Ağqoyunlu hökmdarı Uzun Həsənin gözləri Trabzon yollarına dikilmişdi. Sarayın geniş tavanlı, xalı-gəbəli salonlarında məşəllər titrəyirdi. Təbrizin sərin payız küləyi sarayın pəncərələrindən içəri dolur, ocağın közünü alovlandırırdı.

Uzun Həsən taxtına əyləşib bığlarını burdu. Birləşən el-oba, tikilən dövlət bir yana, bu gün hökmdarın gözlərində başqa bir həyəcan vardı. Qərbi Asiyanın taleyini həll edən sərkərdə bu gün bir cüt sarı saçın sevdasına təslim idi.

Əsgərlərdən biri qapını döyüb icazə istədi.

– Gəl, – deyə Uzun Həsənin zəhmli səsi otaqda əks-səda verdi.

– Sultanım, çağırtdırdığınız aşıq gəlmişdir.

Uzun Həsən əllərini bığlarından çəkib yüngülcə gülümsədi.

– Çağırın, gəlsin.

Aşıq sazını qoynuna sıxa-sıxa Uzun Həsənin qarşısında dayandı.

– Dədə… El-oba toyumuza hazırlaşır. Bu gün istəyirəm bizə elə bir nəğmə söyləyəsən ki, dillərə dastan olsun.

– Sultanım, sən toydan nigaran olma. Sultanımızın toyuna layiq bir nəğmə olacaqdır.

– Əgər elə olsa, səni bir at və qızılla mükafatlandıraram.

Aşıq sazını köksünə sıxaraq yüngülcə baş əydi.

Əsgər yenidən qapını döydü:

– Sultanım, Dəspinə xatun Təbriz darvazalarından içəri girdi! Karvan saraya tərəf qalxır!

Uzun Həsən dərin bir nəfəs alıb əli ilə əsgərə çıxmaq işarəsi verdi. Sonra üzünü aşıq Dədəyə tutdu. Baxışları sanki yenidən o sərt, məğrur sərkərdə baxışlarına qayıtmışdı.

– Eşitdin, Dədə? Vaxtdır. İndi söz də sənin, meydan da…

Təbriz meydanı gəlin bəzəyinə bürünmüşdü. Meydanda tonqallar çatılmış, xalq tərəf-tərəfə düzülmüşdü. Bir tərəfdə Ağqoyunlu bəyləri, digər tərəfdə isə Trabzon elçiləri dayanmışdı.

Qəfildən nağaraların gur səsi kəsildi, aləmə dərin bir sükut çökdü.

Meydana dörd cəsur döyüşçü daxil oldu. Ortalarında Dəspinə xatun addımlayırdı. Başında al ipək duvaq var idi. Dizlərinə qədər tökülən, günəş kimi parıldayan sarı saçları qınından sıyrılmış yalın qılıncların üzərində daşınırdı. Bu, sülhün və sevginin qılınc üzərində gəlişi idi.

Məhz o an aşığın bəm pərdədən yüksələn həzin və yandırıcı səsi havanı yardı:

*“Saçın ucun hörməzlər,*
*Gülü qönçə dərməzlər,*
*Sarı gəlin…”*

Dəspinə xatunu əsgərlər düz Uzun Həsənin yanına qədər gətirdilər. Uzun Həsənin baxışları indi daha da yumşalmış, yerini bəlkə də həyatında ilk dəfə hamının gördüyü bir kövrəkliyə vermişdi.

Onlar üz-üzə, göz-gözə qalmışdılar. Elə bu anda aşıq nəğmənin davamını gətirdi:

*“Bu sevda nə sevdadır?*
*Səni mənə verməzlər,*
*Neynim, aman, aman,*
*Neynim, aman, aman,*
*Sarı gəlin…”*

Nəğmə Uzun Həsəni sanki özündən almışdı. O qədər təsir etmişdi ki, sultan gözlərini bir anlıq yumub həmin yanğılı



səsin bütün bədənini lərzəyə gətirdiyini hiss etdi.

Aşıq isə yanğılı, həzin səsi ilə davam edirdi:

*“Bu dərənin uzunu,*
*Çoban, qaytar quzunu,*
*Quzunu.*
*Nazlı yarın üzünü…*
*Neynim, aman, aman,*
*Neynim, aman, aman,*
*Sarı gəlin…”*

Mahnı nəinki Uzun Həsəni, bütün meydanı ağuşuna almışdı. Bir az əvvəl toy səs-küyü ilə dolub-daşan Təbriz meydanında indi sanki nəfəs alan belə yox idi. Qoca da, cavan da, əsgər də, bəy də aşığın səsinə qulaq kəsilmişdi.

Aşığın barmaqları sazın telləri üzərində asta-asta gəzir, səsi isə getdikcə daha dərin bir yanğıya çevrilirdi. İndi hər kəs öz içində gizlətdiyi həsrəti, bir ayrılığı, bir əlçatmaz sevgini həmin səsdə eşidirdi.

Uzun Həsən Dəspinə xatundan gözlərini çəkə bilmirdi. İllərlə savaş meydanlarında düşmən qarşısında gözünü belə qırpmayan hökmdarın baxışlarında indi qılıncın kəsə bilmədiyi bir zəiflik vardı.

Və əsrlər sonra belə kiminsə səsində həmin baxışın yanğısı eşidiləcəkdi.

Və heç bir qılıncın kəsə bilmədiyi bir sevdanın… O sevda ki, nə zamanla soldu, nə də tarixlə susdu.

Zamanla babalarımızın dilindən düşməyən bir xatirəyə çevrildi. Bir vaxtlar o səs küləklə dağlara qalxdı, çayların axarına qarışdı, çobanların tütəyinə, sonra da nənələrimizin laylasına hopdu. Elə bil zaman özü də onu unutmağa ürək etmədi. İndi hər dəfə o nəğmə səslənəndə, adamın içində qəribə bir sızıltı oyanır… sanki çox uzaq bir kənddə, axşamüstü tüstüsü göyə qalxan evlərin arasında kiminsə pəncərədən baxıb köks ötürməsi kimi…

***Yusif Əhməd***
***Jurnalistika ixtisası üzrə***
***II kurs tələbəsi***

# Günəşə gedən qatar

*(Hekayə)*



Qızmar bir yay günü idi. Hava günorta saatlarında olduqca isti olsa da, axşama yaxın, gün batımı ərəfəsində sərinləyirdi.

Günəşin batdığı üfüq xətti boyunca Bişkek dəmiryolu uzanıb gedirdi. Sanki bu yol başqa bir şəhərə yox, elə günəşin özünə aparırdı. Günəş batanda yol sanki işə düşür, gecə çökəndə isə bağlanırdı.

Qocalar evi də məhz Bişkek dəmiryolunun yanında yerləşirdi. Arabir gəlib-gedən yük və sərnişin qatarları əraziyə bir qədər səs-küy gətirirdi. Qocalar evinin qarşısında balaca bir sərnişin dayanacağı da vardı. Ətrafda adam az olduğundan burada çox adam görünməzdi.

Hər gün səhər və axşam reysləri ərəfəsində bu dayanacaqda bir nəfər oturub gözləyərdi. Lakin sərnişin kimi yox, sadəcə gözləyən kimi.

Gözlədiyi isə heç vaxt gəlib çatmırdı.

Qatarı gözləyirdi, yoxsa arzularını – bunu heç kim bilmirdi.

Əlinə dəyənəyini alar, börkünü taxar, təsbehini oynada-oynada dəmiryolunun uzandığı, günəşin batdığı tərəfə baxardı.

O nə istəyirdi?

Xatirələri, yoxsa təkliyi?

Təkliyi gözləsəydi, hər küncə sığınıb onu gözləyə bilərdi. Lakin qatarda təklik yox, çoxluq və səs vardı.

Onda demək ki, o, birinin səsini gözləyirdi.

Sapar ata düz on beş ildən çox idi ki, buradakı qocalar evində qalırdı. Sakit, öz dünyasına qapılmış bir adam idi. Səksəni keçmiş yaşı səbəbindən bəzən dəyənəklə, bəzən də burada işləyən Zamiranın köməyi ilə gəzirdi.

Bu, onu yorsa da, gəzməyindən əl çəkmirdi.

Hər gün səhər saat doqquzda və axşam saat yeddidə dəmiryolu dayanacağına düşür, iki saat oturub gözləyirdi. Qatar gəlib keçəndən sonra isə qayıdırdı.

Bunu niyə etdiyi soruşulanda yalnız bir cümlə deyirdi:

– Səs gözləyirəm.

Sapar ata başından ağ, toxumalı börkünü heç vaxt əskik etməzdi. Yayda da, qışda da onu taxardı. Çökmüş sifəti, çənəsindən aşağı uzanan uzun, ağ saqqalı ona nurani bir görkəm verirdi. Üzü indi qocalıqdan çöksə də, gəncliyindəki yaraşığın izləri hələ də qalırdı.

Bir gün, axşam saat yeddi ərəfəsində Sapar ata Zamiranı çağırdı.

– Qızım, Zamira, hardasan?

– Gəldim, Sapar ata. Yenə gedəcəksən?

– İstəsən, gəlmə, qızım. Özüm gedərəm, yavaş-yavaş.

– Yox, ata. Gələcəyəm. Sən mənə əmanətsən. Bir yerdə gedək.

– Onda dəyənəyimi ver, gedək.

Zamira Sapar atanın dəyənəyini verdi. Yavaş-yavaş aşağı düşməyə başladılar.

Zamira hər dəfə ondan soruşmağa çəkinirdi: niyə hər gün bunu edir?

Ondan qorxmurdu. Sadəcə bu sualın onun həyatı ilə dərindən maraqlandığını göstərəcəyindən çəkinirdi.

Qocalar deyirdilər ki, o, birini gözləyir. Bəziləri isə qatarlardan xoşu gəldiyini düşünürdülər.

Heç vaxt bu sualın cavabı dəqiq bilinməmişdi.

On bir il boyunca heç kim bir adamın niyə hər gün eyni saatda eyni şeyi etdiyini bilməmişdi.

Sapar ata stula oturdu. Əllərini qovuşdurdu. Sanki dua edirdi. Sonra Zamiraya tərəf dönüb dedi:

– Qızım, bağışla, sənə də əziyyət verirəm. Mənim əvəzimdən o qabaqdakı şam ağacının yanına gedib danışa bilərsən?

– Edərəm, Sapar ata. Lakin mən Göy Tanrıya inanmıram. Dediyim qəbul olunar?

Sapar ata sakitcə gülümsədi.

– Fikir mənimdirsə, Göy Tanrı bunu qəbul edər, qızım.

– Nə deyim?

– De ki: "Səs göyə yayılsa da, mən artıq eşitmirəm. Mənə səsini yetir ki, illərin səsini eşidə bilim".

Zamira ağacın yanına gedib əlini onun gövdəsinə qoydu və Sapar atanın dediklərini təkrarladı.

Bunun nə demək olduğunu bilmirdi. Soruşmağa da çəkinirdi.

Sonra Sapar atanın yanına qayıtdı.

– Ata, çay gətirmişəm. İçərsən?

– Hə, qızım. Süz, birini içək.

Zamira çayı süzərkən Sapar ata uzaqlara baxaraq dedi:

– Bilirsən, İssık-Kulda işləyəndə yoldaşım da belə termosda çay gətirərdi. İçərdik. Deyərdim: "Dinara, sən əziyyət çəkmə, gəlib evdə içərəm". Qəbul etməzdi. Termosla göndərərdi ki, "Get, atana baş çək".

Zamira diqqətlə ona baxdı.

– O deyəndə kim, ata?

Sapar ata bir anlıq susdu.

– Oğlum...

Zamira daha heç nə soruşmadı.

Sapar atanın gözlərinin dolduğunu gördü.

Elə bu anda qatar gəldi. Səsi hər yeri bürüdü. Birbir sərnişinlər düşürdülər. Burada çox adam düşməzdi. Arabir bir-iki işçi görünərdi.

Qatar yenidən hərəkətə gəldi və uzaqlaşdı.

Elə həmin anda günəş də batmışdı.

Sapar ata sakit səslə dedi:

– Dur, qızım. Gedək. Bəsdir artıq.

Zamira onun qoluna girdi və birlikdə binaya doğru getdilər.

Zamira Sapar atanın niyə hər gün bunu etdiyini bilmək istəyirdi.

Bir gün qocalar evinin müdiri Usen əkənin qəbuluna girdi.

– Salam, Usen bəy. Necəsiniz?

– Sağ ol, Zamira qızım. Sən necəsən? Bir də deməmişəm ki, mənə "bəy" demə. Mənim xoşuma gəlmir.

– Yaxşı, Usen əkə. Demərəm bir də.

– Ay sağ ol! Bax, kefim yerinə gəldi. De görüm, nə yaxşı belə?

– Əkə, səndən bir şey soruşum. Sapar ata hər gün niyə dayanacaqda qatar gözləyir?

Usen əkə bir müddət ona baxdı.

– Bilmirsən?

– Yox.

– Özündən niyə soruşmamısan?

– Çəkinirdim bir az.

– Elə biri deyil Sapar kişi. Xoş qəbul edər. Soruşa bilərsən.

– Bəs siz bilirsiniz niyə belə edir?

– Sapar kişi Oş şəhərindəndir. O vaxtlar İssık-Kul tərəflərinə kolxozlarda işləmək üçün gedib. Sonra ailəsini də aparıb. Bir daşqında yoldaşını itirib. Yeganə oğlu Temirbeki boğazından kəsib böyüdüb, oxudub. Fəhləliklə çörək qazanıb.

Zamira diqqətlə qulaq asırdı.

– Bəs oğlu haradadır? Niyə o qocalar evindədir?

– Oğlu sonra Rusiyaya işləməyə gedib və qayıtmayıb. Bir dəfə gəlib, atasını qocalar evinə yerləşdirib, sonra gedib. Deyəsən, orada ailə həyatı qurub.

– Bu qədər ildə heçmi yanına gəlməyib?

Usen əkə başını buladı.

– Yox. Nə gələcək? Təzədən o, Sapar kişini neynəyir? Boğazı çörəyə çatıb.

Zamira susdu.

– Sapar ata onda oğlunu gözləyir?

– Hə, qızım. İllərdir bir ümidlə yaşayır. Nə vaxtsa oğlunun gələcəyini düşünür.

– Məktub yazıb gətirmək olmaz?

– Neçə dəfə yazmışıq. Cavabsız qalıb.

Zamiranın gözləri doldu.

Məhz insan sadəcə ehtiyacı olduğu zaman birini seçib sayır, arayıb-axtarır?

Sapar ata buna layiq deyildi axı.

İllər boyunca boğazından kəsib bir oğul böyütmüşdü. İndi isə o oğul atasına bir məktubu belə çox görürdü.

Sanki Temirbek Sapar kişi olmadan bu yaşa öz gücü ilə gəldiyini düşünürdü.

Zamira Sapar atanı yenə dayanacağa aparırdı.

Bu səfər sanki o da birini gözləyəcəkdi.

Oturub birlikdə dəmiryoluna baxmağa başladılar.

Sapar ata danışmırdı.

Bir müddət sonra Zamira dilləndi:

– Ata, deyəsən, yenə gəlmədi.

Sapar ata onun üzünə baxıb gülümsədi.

– Artıq yenə yoxdur, qızım. Gəlmir.

Bir anlıq susdu.

– İndi bildin səs kimdir?

Zamira gözlərini aşağı saldı.

– Bildim, Sapar ata. Səs sənin səsindir. Sən cavanlığının səsini, yəni oğlunun səsini eşitmək istəyirsən. Ona görə qatarı gözləyirsən.

Sapar ata gülümsəyərək bunu təsdiqlədi. Sonra yenə birlikdə oradan getdilər.

Sapar ata yaman xəstə idi. Qızdırması düşmürdü. Həkimlər hər gün ona iynə vururdular. Buna görə də bir neçə dəfə dayanacağa enə bilməmişdi. Onun yerinə Zamira gedirdi. Gördüklərini, eşitdiklərini ona danışırdı. Sanki Sapar ata da yanındaymış kimi hiss etdirirdi. Həkimlər Saparın vəziyyətini yaxşı görmürdülər. Yaş öz işini görürdü.

Bir gün Usen əkə Sapar atanın yanına gəldi.

Sapar ata zəif səslə dedi:

– Usen, mənə bir su ver görüm.

– Al, ata. İç. Nəsə istəyirsən başqa?

Usen əkə bir anlıq susdu.

– Oğluna məktub yazaq? Gəlsin. Ya da gətirdək təcili yolla bura?

Sapar ata başını buladı.

– Yox, ay kişi... Nə qoyub nə axtarırsan?

Quru öskürdü.

– Gələn gələrdi. Gəlməyən demək ki, heç olmayıb.

Sonra zəif səslə soruşdu:

– Zamira qızım haradadır?

– Buradayam, Sapar ata. De.

Sapar ata ona baxdı.

– Qızım, sənin haqqını ödəyə bilmərəm. Tengri səni qorusun. Sən ondan, vallah, ondan qeyrətli çıxdın.

Bir qədər nəfəsini dərdi.

– Səndən son bir şey istəyirəm. Mən artıq gedirəm. O gəlmədi. Barı qoy mən gedim. Məndən də bir xatirə qalsın bu qocalar evinə. İki bənd şeirimi özüm deyəcəyəm, sən yaz.

Zamiranın gözləri doldu.

– Buyur, ata.

Sapar ata zəif səslə başladı:

*Bir oğul böyütdüm, dedim mən kimi olsun,*
*Zəhmətkeş, xoşbəxt, həyatı nurla dolsun.*
*Demədim qaçıb getsin, bir çiçək kimi solsun,*
*Unutsun bu fəhləni – ona da eyib olsun!*

Bir anlıq gözlərini yumdu. Sonra davam etdi:

*Oğul səsi izinə hər gün qatar gözlədim,*
*Həsrətimi, arzumu gün getdikcə közlədim.*
*Görüşən ailələri paxıl kimi izlədim,*
*Qatarlara çox dözdüm, həsrətinə dözmədim!*

Sapar ata son misranı dedikdən sonra Zamiranın üzünə baxdı. Amma daha tərpənmədi. Gözləri hələ də parıldayırdı. Artıq yola çıxmışdı. Qatara bu dəfə əsl mənada sərnişin kimi minmişdi. İllər boyu gözləmiş, sonda yenidən cavanlaşmışdı. İndi isə oğluna neçə illərdir vermək istədiyi sualı verməyə gedirdi:

"Niyə gəlmədin, oğul?"

Usen əkə gözlərini yumdu. Sapar atanın təsbehini əlinə alaraq onun gözlərini bağladı.

Sapar ata qocalar evinin qəbiristanlığında, illər boyu oğlu üçün dualar etdiyi şam ağacının yanında dəfn edildi.

İnsan, demək ki, yalnız birinə ehtiyacı olduğu zaman ona dəyər verir. Ehtiyac qalmadıqda isə ən yaxın insan belə adi birinə çevrilir.

Sapar ata qatara minmiş, günəşə tərəf gedirdi. Oğlu məhz orada idi. Gün batanda. Bəlkə də oğlu özü günəş deyildimi? Lazım olanda çıxır, işi bitəndə isə yoxa çıxırdı.

Oğlunun da Saparla işi bitmiş, ona ehtiyacı qalmamışdı.

Temirbek atasının illərdir gözlədiyi gün gəlmədi. O, yalnız Sapar atanın cənazəsində gəldi. Sanki illərin üzrünü istəmək üçün... Amma bəzi üzrlər var ki, insan onları demək üçün çox gecikir. Bəzən gözləyən insan gedir, gələn isə ömrünün sonuna qədər gecikmiş olur.

Sapar ata isə artıq günəşə tərəf gedirdi. Bəlkə də bu dəfə gözlədiyi səsi özü eşidəcəkdi.

"Niyə gəlmədin, oğul?"

***Onur Cəbrayılov***
***Jurnalistika ixtisası üzrə***
***II kurs tələbəsi***

**Baş redaktor:**
**Şəhla Şirəliyeva**
shehlashiraliyeva@ndu.edu.az

**Ünvan:** AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
**Telefon:** 544-08-61 (1360)
yenifikir.ndu@gmail.com

Qeydiyyat № 330
Sifariş № 374
Tiraj 350

**Dizayner:**
**SAHİLƏ ABBASOVA**
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.